RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 193 (8216) ÇƏRŞƏNBƏ, 4 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yüksək sosial rifahın real nümunəsi

## Prezident İlham Əliyevin iki böyük sosial paketi çərçivəsində ölkədə ilk dəfə olaraq minimum əməkhaqqı bir ildə 2 dəfə artırılıb

**Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq və vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Elə bu səbəbdən də dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, eyni zamanda hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir.**

Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Xüsusilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur, bu kateqoriyaya aid olan insanlara mənzillər, avtomobillər verilir, onlar güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.

Beləliklə, sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir.

2019-cu ilin əvvəlindən başlayaraq dövlət başçısının imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşların rifah halını yüksəldib.

Ardı 2-ci səh.

# Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlət başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulandı, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirildi və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

# İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağac əkiləcək




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək.

Heydər Əliyev Fondundan və Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində geniş ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri və könüllü gənclər qoşulacaqlar. Bu genişmiqyaslı tədbirə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadının doğulduğu Şamaxı rayonunda start veriləcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Xatırladaq ki, dahi şairin 600 illik yubileyi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə təntənəli surətdə keçirilib. Böyük söz ustadının 600 illiyi UNESKO-nun əlamətdar tədbirləri siyahısına daxil edilərək 1973-cü ildə ilk dəfə beynəlxalq miqyasda qeyd olunub. Onun poetik irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Nəsimi poeziyasının fəlsəfəsi təbiət gözəlliklərinin, saf bəşəri duyğuların, şəxsiyyət azadlığının tərənnümü üzərində qurulub və Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynayıb.

Mütəfəkkir şairin yaradıcılığında insan və təbiət münasibətlərinin harmoniyası xüsusi yer tutduğuna görə, onun xatirəsinin bu kontekstdə genişmiqyaslı, yaddaqalan tədbirlə əbədiləşdirilməsi ölkəmizin yaşıl, çiçəklənən diyara çevrilməsinə, ətraf mühitin sağlamlaşdırılmasına verilən dəyərli töhfədir.

# Məmur vətəndaşın yanında olanda...

**Hər zaman insan amilini, xüsusilə vətəndaş məmnunluğunu önə çəkən dövlət başçısı regionların inkişafında əhalinin arzu və təkliflərinin əhəmiyyətli olduğunu dəfələrlə vurğulamış və icra orqanlarının fəaliyyətində bunların əsas götürülməsini vacib hesab etmişdir.**

Prezidentin verdiyi tapşırıq və tövsiyələrə diqqətlə yanaşan Qazax Rayon İcra Hakimiyyətinin rəhbərliyi öz fəaliyyətində məhz bu prinsipi əsas götürərək tez-tez kənd və qəsəbələrdə olur, əhalinin arzu və təkliflərini dinləyir, mövcud problemlərin vaxtında həll olunmasını təmin edir.

Qərb bölgəsində yerləşən və Ermənistanla 168 kilometr həmsərhəd olan Qazax rayonunda bu iş üsulu ikiqat əhəmiyyətlidir. Rayon icra hakimiyyətinin başçısı R.Babaşov, eləcə də idarə və təşkilatların rəhbərləri ən azı həftədə 3 dəfə yerlərdə olur, sakinlərin arzu və istəklərini, problemlərini öyrənirlər. Özü də belə görüşlərdə rayon rəhbərliyi təkcə sakinləri dinləməklə işini bitmiş hesab etmir, qaldırılan problemlərin vaxtında həll olunması üçün yerindəcə tapşırıqlar verir, bir neçə gündən sonra isə onun icrası vəziyyətini yoxlayır. İşin belə təşkili əhalini razı salmaqla yanaşı, onlarda dövlətə inamı da artırır.

Çaylı kənd sakini Elmar Musayev 20 hektara yaxın ərazidə gül kələmi əkdiyi, lakin həmin sahənin suvarma suyu ilə təminatında problem olması barədə rayon icra hakimiyyəti başçısına ərizə ilə müraciət edərək 30 ailənin çalışdığı təsərrüfata ziyanın dəyməməsi, əkin sahəsinin vaxtında suvarılması üçün kömək göstərilməsini xahiş etmişdi.

Ardı 5-ci səh.

"Əsrin müqaviləsi" - 25



# "Dərinsulu Günəşli"dən hasilata başlanması Azərbaycanın yeni neft strategiyasının daha bir qələbəsi idi

2008-ci ilin aprel ayında Azərbaycanın neft sənayesi tarixində daha bir əlamətdar hadisə baş verdi. "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft alındı. "Dərinsulu Günəşli"dən hasilata başlanması Ulu Öndər Heydər Əliyevin neft strategiyasının daha bir qələbəsi idi.

Bu, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları haqqında bədgüman olanlara, Azərbaycanda Bakı-Tbilisi-Ceyhan kəmərini doldurmaq üçün yetərincə neftin olmadığını deyənlərə tutarlı cavab idi.

Xəzərin Azərbaycan sektorundakı "Günəşli" yatağı dayaz və dərinsulu hissələrdən ibarətdir. Dayazsulu hissə hələ sovet dönəmində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) tərəfindən işlənib və onilliklərdir ki, istismar olunur. Dərinsulu hissənin işlənməsi isə AÇG layihəsinin tərkib hissəsini - üçüncü fazasını təşkil edir.

Digər yataqlardan olduğu kimi, "Dərinsulu Günəşli"dən də ilk neft öncədən qazılmış quyulardan alındı. Bu cür quyular adətən əvvəlcədən qazılır və platforma tam quraşdırılandan sonra ona birləşdirilərək işə salınır. Daha sonra platformanın özündən quyuların qazılmasına başlanır. Quyuların sayı çoxaldıqca, hasilat da artır.

"Dərinsulu Günəşli" kompleksi "Günəşli" yatağının şərqində, suyun dərinliyinin 175 metr olduğu ərazidə yerləşir. O, iki nəhəng dəniz qurğusundan ibarətdir. Bunlardan birincisi qazma, texnoloji təchizat və yaşayış platformasıdır. İkincisi isə hasilat, kompressor, suvurma və texnoloji təchizat platforması adlanır. Platformalar arasında körpü salınıb.

Ardı 3-cü səh.

# İşğalçılıq üzərindən yürüdülən militarist siyasət

## Yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma "müstəqillik" heç bir gələcək vəd etmir

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın həyata keçirdiyi fəal siyasət işğalçı Ermənistanın üzləşdiyi məğlubiyyətlər seriyasının artması, daha böyük zərbələr alması ilə müşayiət olunur. Hərb cəbhəsi ilə yanaşı, diplomatik müstəvidə Ermənistana vurulan zərbələr bu ölkədə daha çox narahatlıq, təşviş yaradır.

Ermənistanda açıq etiraf edirlər ki, bununla Azərbaycan Dağlıq Qarabağ məsələsində mövqelərini daha da gücləndirir, istədiyi şərtləri rahatlıqla diktə edir. Eyni zamanda, baş verənlər beynəlxalq müstəvidə Azərbaycanın haqlı tələblərinin daha yaxşı eşidilməsinə, ermənilərin fəaliyyətinin uğursuzluğuna, istehza ilə qarşılanmasına gətirib çıxarır.

Təəssüf ki, bu gün Ermənistan problemin dinc müstəvidə həlli məqsədilə ona verilən şansı lazımınca dəyərləndirmir. Eyni zamanda işğal olunmuş ərazilərdə yaradılan qondarma separatçı rejimin hər il keçirdiyi "müstəqillik günləri" də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan danışıqlara xələl gətirməkdədir.

Ardı 5-ci səh.

# Əli HƏSƏNOV: "Tarix onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi"

Əli Kərimli son vaxtlar yenidən yaxın tariximizi təhrif edərək Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonunun işğal olunduğunu iddia etməyə başlayıb. Hələ o illərin canlı şahidləri Azərbaycan əhalisinin demoqrafik balansında xüsusi çəkiyə malikdir və yaxşı xatırlayırlar ki, Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməmişdən əvvəl işğal edilib.



Azərbaycanın işğal edilmiş sonuncu rayonu Zəngilan Ermənistan hərbi birləşmələri tərəfindən 1993-cü ilin oktyabrında zəbt olunmuşdu. Həmin vaxta qədər Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi. Heydər Əliyev 1993-cü ilin 15 iyununda xalqın dəvəti ilə Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin sədri seçilmişdi. Lakin ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq legitim prezidentə, faktiki olaraq baş nazirə tabe idi. Parlamentin sədri kimi Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi manеələr yaradırdılar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusunda bildirib.

Statusda deyilir: "AXC-Müsavat hakimiyyəti ölkəni bərbad vəziyyətə salmışdı və bu, orduda daha acınacaqlı hal almışdı. Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər.

Cəbhədə döyüşlərin getdiyi vaxt Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun və digərlərinin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini xalq unutmayıb.

Silahlı birləşmələr Bakıda vəzifə davasında iştirak etdiyi vaxt isə cəbhə müdafiəsiz qalmışdı. Nəticədə erməni işğalçıları Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da zəbt etməyə nail oldular.

Tarixi saxtalaşdırmağa çalışanlar cavab versinlər: Belə bir vəziyyətdə Heydər Əliyev hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşını ala bilərdi?

Parlamentin sədri kimi heç bir güc strukturuna çıxışı olmayan və bu səbəbdən işğalın qarşısını ala bilməyən Heydər Əliyev Azərbaycanı etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan xilas edə bildi.

Bakıya qayıtdıqdan sonra cəmi 6 ay ərzində Heydər Əliyevin Azərbaycanın xilası üçün nələr etdiyini xalqımız unutmayıb:

1. Heydər Əliyev ölkəni AXC-Müsavat tandeminin səriştəsiz idarəçiliyi, xəyanət səviyyəli səhlənkarlığı ucbatından məhvolma təhlükəsindən, silahlı vətəndaş qarşıdurması girdabından xilas etdi;

2. Heydər Əliyev Azərbaycanı yaxşı halda federallaşmaya, əslində isə siyasi xəritədən silməyə hesablanmış etnik-regional separatizm meyillərinə qarşı ölkənin bütün vətəndaşlarını vahid dövlətçilik - azərbaycançılıq ideyası ətrafında yığaraq səfərbər etdi. İstər cənub, istər şimal-şərq, istərsə də şimal-qərb regionlarının ziyalıları, sıravi vətəndaşları Heydər Əliyevin çağırışlarına səs verərək separatizm ocaqlarını söndürdülər və Azərbaycan bölünüb parçalanmaq təhlükəsindən xilas oldu;

3. Heydər Əliyev mövcud olmayan, "səhra komandirləri"nin daxili "razborkalar", müdafiə nazirinin isə digər nazirlikləri və Prezident Aparatını zəbt etmək üçün istifadə etdiyi silahlı qüvvələrdən qısa müddətə real, vətənpərvər əsgər və zabitlərdən komplektləşdirilmiş milli ordu qurmağa nail oldu. Bu ordu Horadizdə, Cəbrayılda ilk ciddi uğurlarını qazandı, indi bəzi memuarlardan bəlli olduğu kimi, digər paytaxtlarda cızılan və Azərbaycanın müxtəlif ölkələr arasında bölüşdürülməsini nəzərdə tutan planları pozmaq gücündə olduğunu sübut etdi. Məhz ordumuzun qısa müddətdə toparlanıb real gücə çevrilməsi Ermənistanı atəşkəs müqaviləsinə getməyə məcbur etdi;

4. Heydər Əliyev Azərbaycan daxilində günü-gündən genişlənən xaosun, hüquqi özbaşınalığın, "polis-reket" sisteminin, qarətçiliyin, "qanuni oğrular" hakimiyyətinin qarşısını aldı. Ölkədə qayda-qanun bərqərar edildi. İndi sevmədiyiniz ifadələri təkrarlayaq: insanlar gecələr oğurlanmaq, şikəst edilmək qorxusu olmadan küçəyə çıxmağa başladı;

5. Heydər Əliyev Azərbaycanı sizin öz hakimiyyətinizi və bütövlükdə gənc dövləti bütün dünyaya düşmən edən bərbad xarici siyasətdən xilas etdi. Bəzən Ustad müəllim kimi Azərbaycanın xəritəsi ilə dünyanı dolaşaraq gerçəklərimizi, problemlərimizi dünyaya tanıtdı, irqi-etnik təəssübkeşliklə dünyaya meydan oxumağın, "İranı viran etmək", "Rusiyanı parçalamaq", "Çinə türk bayraqları sancmaq" xülyalarının xarici siyasət kursu olmadığına dünyanı inandıra bildi, Ermənistan istisna olmaqla, heç bir qonşu dövlətlə problemi olmayan, komplimentar xarici siyasət kursu tətbiq etdi.

Mən sizə sual verirəm: belə çətin, param-parça vəziyyətdə məsuliyyətinizi, dövlət əxlaqını dərk etmədən atıb qaçdığınız Azərbaycanın siyasi, sizinsə fiziki varlığınızı xilas etdiyi üçünmü Heydər Əliyevin ünvanına ittihamlar səsləndirirsiniz?

Daxili İşlər naziri dünyanı nüvə müharibəsi ilə təhdid edən, Müdafiə naziri prezident və spikerə meydan oxuyan, hər səhra komandiri paytaxta qoşun çəkib vəzifə davasına çıxanlarmı torpaq itkisində günahkardır, yoxsa Azərbaycanı bu rəzalətdən, anormal vəziyyətdən, siyasi və fiziki məhvdən xilas edən Heydər Əliyevmi?

Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloqqer kimi maraq doğurursunuz..."

# YAP İcra Katibliyi partiyanın mənzil-qərargahında ənənəvi mətbuat konfranslarının bərpasına dair qərar qəbul edib

Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyi partiyanın mənzil-qərargahında keçirilən ənənəvi mətbuat konfranslarının bərpası barədə qərar qəbul edib. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.

Layihənin məqsədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurları, cəmiyyət həyatının bütün sahələrini əhatə edən möhtəşəm islahatlar, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan məqsədyönlü addımlar haqqında Azərbaycan vətəndaşlarına daha mötəbər, operativ və dolğun informasiyanın çatdırılmasıdır.

Layihə çərçivəsində bütün dövlət və hökumət qurumlarının rəhbərlərinin iştirakı ilə YAP İcra Katibliyində mətbuat konfranslarının keçirilməsi nəzərdə tutulur.

Sentyabrın 10-da ilk mətbuat konfransı Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin iştirakı ilə keçiriləcək.

# Daxili İşlər naziri Türkiyə Milli Polis Akademiyasında magistr təhsili alacaq əməkdaşlarla görüşüb



"Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" 2011-ci il 25 oktyabr tarixli protokola əsasən, 2019-2020-ci tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində magistr təhsili almaq üçün Azərbaycan polisinə 6 yer ayrılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən nazirliyin "Avtomatlaşdırılmış kadr informasiya sistemi" vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 6 əməkdaş seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilib.

Bu münasibətlə seçilmiş namizədləri qəbul edən Daxili İşlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, təhsil alacaqları dövrdə türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərilərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyə edib. O, əmin olduğunu bildirib ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

# Yüksək sosial rifahın real nümunəsi

## Prezident İlham Əliyevin iki böyük sosial paketi çərçivəsində ölkədə ilk dəfə olaraq minimum əməkhaqqı bir ildə 2 dəfə artırılıb

*Əvvəli 1-ci səh.*

Prezidentin 2 sosial paketi ümumilikdə 4,2 milyon nəfəri əhatə edib. İki sosial paket çərçivəsində reallaşan uğurlu göstəricilərə nəzər yetirdikdə bunu aydın şəkildə görə bilərik.

Beləliklə, iki sosial paket 4,2 milyon insanı əhatə edir. İki sosial paketin maliyyə tutumu bu il üçün 2,3 milyard manat, gələn üçün isə 3 milyard manatdır. Bu isə o deməkdir ki, Azərbaycanda bir il ərzində iki dəfə minimum əməkhaqqı və minimum pensiya artırılıb. Ölkəmiz bu göstərici üzrə MDB-də müvafiq olaraq 1-ci yerdə qərarlaşıb.

**I sosial paket:**

- Minimum əməkhaqqı 130 manatdan 180 manata yüksəldi;
- 600 min işçinin əməkhaqqı artırıldı;
- 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər 100 faiz artdı;
- 9 kateqoriya üzrə Prezidentin aylıq təqaüdü orta hesabla 100 faiz artdı;
- 450 min nəfərin əməkhaqqında 30 faiz, 150 min nəfərdə isə 25 faiz artım oldu;
- 223 min insanın pensiya təminatı yaxşılaşdırıldı;
- Minimum əməkhaqqı və minimum pensiya 40 faiz artdı;
- 100 minə yaxın tələbənin təqaüdü artırıldı;
- Minimum pensiyalar 116 manatdan 160 manata yüksəldi;
- Milli qəhrəmanlar üçün Prezident təqaüdü 1000 manatdan 1300 manata qalxdı;
- Şəhid ailəsinə verilən təqaüd 242 manatdan 300 manata qaldırıldı;
- Əfqanıstan şəhidlərinin ailəsinə verilən müavinət 300 manat oldu;
- 2 yeni təqaüd növü təsis edildi;
- 800 mindən çox insanın problemli krediti həll edildi;
- Çoxmənzilli binalardakı mənzil probleminin həlli 300-400 insanı əhatə etdi;
- 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından faydalandı;
- Sosial məsələlərin həllinə ümumilikdə 1,6 milyard manat vəsait yönləndirildi;
- Bu gün artımlardan 830 min insan yararlanır.

**II sosial paket:**

- Minimum əməkhaqqı 180 manatdan 250 manata yüksəldi;
- 1 milyon 350 min işçinin əməkhaqqı artırıldı;
- 950 min nəfərin (600 min dövlət, 350 min qeyri-dövlət sektoru) maaşı artdı;
- Büdcədən maliyyələşən 400 min nəfərin vəzifə maaşları 20-50 faiz yüksəldi;
- Artım üçün büdcədən illik 780 milyon manat əlavə vəsait ayrıldı;
- Minimum əməkhaqqının məbləği 92,3 faiz artırıldı;
- Minimum əməkhaqqı yaşayış minimumunu (180 manat) 40 faiz üstələdi;
- 750 min pensiyaçıya verilən vəsait isə oktyabrın 1-dən artırılacaq;
- Pensiyanın minimum məbləği 160 manatdan 200 manata çatdırılacaq;
- Bu artım 660 min nəfər pensiyaçını əhatə edəcək;
- Bununla pensiyanın minimum məbləği il ərzində 72,4 faiz artırılmış olacaq;
- İki sosial paketin 2 illik maliyyə tutumu 5,3 milyard manatdır;

Bütün bunlar ölkə vətəndaşlarının güzəranının yaxşılaşdırılması üçün atılan növbəti addımdır və sosial rifahın yüksəldilməsinə dair həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin miqyasının getdikcə artdığını göstərir. Şübhəsiz ki, bu islahatların başında Azərbaycan vətəndaşının maraqları və onun rifah halının yaxşılaşdırılması, həmçinin sosial ədalət və humanizm prinsipləri durur.

Digər sahələrdə də həyata keçirilən islahatlar, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün göstərilən səylər onu deməyə əsas verir ki, bunlar ölkənin dinamik inkişaf etməsinə və yoxsulluğun daha da azalmasına səbəb olacaq.

Əminliklə deyə bilərik ki, bu islahatlar ölkədəki sabitliyin, iqtisadi inkişafın nəticəsidir.

Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası isə gündən-günə genişlənir. Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin sosial islahatlarla bağlı ilin əvvəlindən başlayaraq imzaladığı fərman və sərəncamlar onu deməyə əsas verir ki, 2019-cu il böyük sosial səmərəlilik ilidir və ölkəmizin tarixinə sosial islahatlar ili kimi yazılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "TurAz Qartalı-2019" təlimlərinin açılış mərasimi olub

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi, briqada generalı İsmail Hakkı Köseali "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimində iştirak ediblər.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-leytenant R.Tahirov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğını xüsusi qeyd edib, keçirilən təlimlərin əhəmiyyətini vurğulayıb. Komandan bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu diqqətə çatdıraraq bu təlimlərin hər iki ölkənin ordularının təcrübə mübadiləsində mühüm rol oynadığını bildirib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan briqada generalı İ.Köseali qürur hissi keçirdiyini bildirərək son illərdə bunun artıq ənənə halını almasını xüsusi qeyd edib. Hərbi attaşe təlimlərin başlanması ilə əlaqədar iştirakçıları təbrik edib və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsində onlara uğurlar arzulayıb.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə məlumat verilib.

# İstanbulda "İslam Əməkdaşlıq Təşkilatı Gənclər Günü" Forumu işə başlayıb




Sentyabrın 3-də Türkiyənin İstanbul şəhərində "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Günü" Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanı Gənclər və İdman naziri Azad Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

Tədbirdə, eyni zamanda, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumunun (İCYF) prezidenti Taha Ayhan, Türkiyənin Gənclər və İdman naziri Muharrem Kasapoğlu, İƏT-in mədəniyyət və sosial məsələlər üzrə baş direktoru xanım Mehla Ahmed Talebna, Malinin Gənclər və İdman naziri Aruna Modibo Toure və digərləri də iştirak edirlər.

Forumda çıxış edən nazir Azad Rəhimov əvvəlcə Taha Ayhanı İCYF-nin prezidenti seçilməsi münasibətilə təbrik edib, ona uğurlar arzulayıb. Nazir bu təşkilatın çox böyük inkişaf yolu keçdiyini və ötən dövr ərzində İƏT-ə üzv ölkələrdən 48 gənclər institutunun İCYF sıralarına qoşulduğunu qeyd edib.

Nazir çıxışında Azərbaycan hökumətinin daim İCYF-ni dəstəklədiyini, 2004-cü ildə Prezident İlham Əliyevin himayəsi altında İslam Əməkdaşlığı Gənclər Forumunun Baş Assambleyasının Bakıda keçirildiyini diqqətə çatdırıb. Eyni zamanda, İstanbulda İCYF-nin baş qərargahının açılışında da Prezident İlham Əliyevin iştirak etdiyini bildirib. O vurğulayıb ki, həmin gün - 3 sentyabr tarixinin İslam Konfransı Təşkilatı tərəfindən İslam Ölkələri Gənclər Günü kimi qeyd olunması haqqında qərar qəbul edilib.

Azad Rəhimov təşkilat və Azərbaycan hökuməti arasındakı sıx münasibətlərdən danışarkən bildirib: "2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Gənclərin hamisi ilk Fəxri Nişanını verdiyiniz üçün sizə təşəkkür edirəm".

Nazir söyləyib ki, bu gün dünyanın 25 faizini, təqribən 2 milyard əhalisini müsəlmanlar təşkil edir. Bu din dünyada yüksək sürətlə inkişaf etməkdədir. Əfsuslar olsun ki, bir sıra islam ölkələrinin gəlirləri və həyat səviyyələri dünyanın digər ölkələri ilə müqayisədə çox aşağıdır. Təhsil və gənclər siyasəti hər bir ölkənin prioritet sahələrindən olmalıdır. Gənclər siyasi, iqtisadi, ümumilikdə ölkənin inkişafına istiqamətlənmiş sahələrdə özlərini realizə edib, böyük işlərə imza atmalıdırlar. Təbii ki, bütün bu məsələlərdə dövlətin rolu əvəzsizdir. Ölkədə gənclər siyasəti mütləq şəkildə yüksək səviyyədə inkişaf etməlidir.

Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti haqqında məlumat verən nazir Azad Rəhimov deyib ki, Ümummilli Lider Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilib. Bu gün Azərbaycanda gənclərin inkişafına yönəlmiş dövlət proqramları, strategiyalar uğurla həyata keçirilir. Ölkəmizin müxtəlif regionlarında gənclərin özlərini realizəsi üçün 40-dan çox gənclər mərkəzləri mövcuddur. Üç yüzdən çox gənclər təşkilatı fəaliyyət göstərir.

Sonda nazir forum iştirakçılarına uğurlar arzulayıb.

Qeyd edək ki, forum çərçivəsində nazir Azad Rəhimov Türkiyənin Gənclər və İdman naziri Muharrem Kasapoğlu, İƏT-in mədəniyyət və sosial məsələlər üzrə baş direktoru xanım Mehla Ahmed Talebna, Malinin Gənclər və İdman naziri Aruna Modibo Toure, həmçinin Dünya Etnosport Federasiyasının prezidenti Bilal Erdoğan ilə ikitərəfli görüşlər keçirib.

# Dünya Baptist Alyansı İttifaqının nümayəndələri Azərbaycandakı tolerant mühit barədə məlumatlandırılıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 3-də Dünya Baptist Alyansı İttifaqının nümayəndələri ilə görüşüb.

DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı dövlət komitəsinin sədri Azərbaycandakı sabit dini vəziyyət, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı, o cümlədən tolerant və multikultural dəyərlərin təbliği sahəsində görülən işlər haqqında ətraflı məlumat verib.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu nümunəvi dövlət-din münasibətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda, xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib. Komitə sədri vurğulayıb ki, ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması qeyri-islam dini qurumların fəaliyyətinə əlverişli şərait yaradır. Azərbaycanda 35 qeyri-islam dini qurumun dövlət qeydiyyatına alındığını diqqətə çatdıran M.Qurbanlı islam təmayüllü dini icmalarla yanaşı, onlara da dövlət büdcəsindən maddi yardım göstərilməsinin artıq ənənəyə çevrildiyini qeyd edib.

Mübariz Qurbanlı söhbət zamanı qonaqları Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasəti barədə də məlumatlandırıb, bütün beynəlxalq konvensiyaların şərtlərini pozaraq tarixi abidələrimizə qarşı törədilən cinayətlərə diqqət çəkib.

Ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayandığını bildirən Dünya Baptist Alyansı adından BMT-nin Cenevrədəki daimi nümayəndəsi R.Şeyn Makneri Azərbaycanın nümunəvi tolerantlıq və multikulturalizm mühiti sərgiləməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, beynəlxalq ictimaiyyət və dünyəvi dövlətlər bu yanaşmanı nümunə kimi qəbul etməlidirlər.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparılan görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Minimum əməkhaqqı yaşayış minimumunu 40 faiz üstələyir

Prezident İlham Əliyevin 2019-cu il iyunun 18-də imzaladığı sərəncamlara əsasən, sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, həmçinin dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib.



Beləliklə, ölkəmizdə vətəndaş rifahına yönələn və 2019-cu il sosial islahatlarının tərkib hissəsi kimi bu il Azərbaycanda minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda, həmin məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, minimum əməkhaqqının artımının ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla 950 min nəfərin, o cümlədən dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin maaşının artmasına imkan verib.

Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə tək qonşu ölkələrlə deyil, MDB ölkələri ilə müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə artıq ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Dövlət başçısının 2019-cu il iyunun 18-də imzaladığı sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyənlərin əməkhaqlarının 20-50 faiz artırılması isə 400 min vətəndaşı əhatə edib.

İkinci sosial paketin tərkib hissəsi kimi minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli artması ilə nəticələnib.

## Müəllimlər məmnundurlar

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə sentyabrın 1-dən minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının 20 faiz artırılması Qax rayonunun təhsil işçiləri tərəfindən də böyük razılıq hissi ilə qarşılanıb.

Qax şəhərindəki şəhid Etibar Babayev adına 4 nömrəli tam orta məktəbin direktor müavini Bəsti Əfəndiyeva: "Əhalinin sosial rifahının yaxşılaşdırılması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindəndir. 43 ildir ki, məktəbdə müəllim işləyirəm. Ölkəmizdə müəllim əməyinə həmişə yüksək qiymət verilir, onların sosial rifahının, maddi vəziyyətinin yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir. Son illər dövlət başçısı tərəfindən müəllimlərin əməkhaqqının artırılması ilə bağlı bir neçə sərəncam imzalanıb. Prezident İlham Əliyevin bu il iyunun 18-də imzaladığı sərəncama əsasən əməkhaqlarımızın növbəti dəfə 20 faiz artırılması təhsilə qayğının, müəllim əməyinə verilən yüksək qiymətin bariz nümunəsidir".

Sərəncamın məktəbdə işləyən 70-dək müəllimə şamil olunacağını diqqətə çatdıran Bəsti Əfəndiyeva deyib: "Əməkhaqqının artırılması biz müəllimləri daha yaxşı işləməyə ruhlandırır. Təbii haldır ki, müəllimin maddi rifahı yüksəldikcə daha yaxşı işləyəcək, uğurlu nəticələr əldə edəcək. Hazırda məktəbimizdə elə müəllimlər var ki, 400-600 manat əməkhaqqı alır. Bir neçə il əvvəl isə əməkhaqlarımız bundan 2-3 dəfə aşağı idi. Müəllim əməyinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk. Dövlət başçısını əmin edirik ki, bizə göstərilən etimadı layiqincə doğruldacaq, gənc nəslin təlim-tərbiyəsi işində daha böyük nailiyyətlər qazanacağıq".

## 6 ayda qeyri-neft məhsullarının ixracı 15,7 faiz artıb

### Bu dövr ölkə üzrə ixracatın dəyəri 10 milyard dollara yaxındır

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi növbəti - 28-ci İxrac İcmalını hazırlamışdır. İcmalda bildirilir ki, Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-iyun ayları ərzində ölkəmizdən ixrac edilən məhsulların dəyəri 9,98 milyard dollar təşkil etmişdir.**




Bu, ötən ilin müvafiq dövrünə nisbətən 1,3 milyard dollar və ya 15 faiz çoxdur. O cümlədən hesabat dövründə qeyri-neft sektoru üzrə 979 milyon dollarlıq məhsul ixracı reallaşdırılmışdır.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 133 milyon dollarlıq (15,7 faiz) artmışdır. İcmalda açıqlanır ki, yanvar-iyun ayları ərzində Rusiyaya 355 milyon, Türkiyəyə 213,3 milyon, Gürcüstana 85,4 milyon, İsveçrəyə 73,5 milyon və İtaliyaya 30,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (36,3 faiz), Türkiyəyə (21,8 faiz), Gürcüstana (8,7 faiz), İsveçrəyə (7,5 faiz) və İtaliyaya (3,1 faiz) göndərilmiş malların payı daha çox olmuşdur. İlin ilk yarısında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Rusiyaya qeyri-neft məhsulları ixracı 11, Türkiyəyə 18, Gürcüstana 15, İsveçrəyə 6 faiz, İtaliyaya 2,3 dəfə artmışdır.

İcmala görə, hesabat dövründə ixrac edilən qeyri-neft məhsullarının siyahısında pomidor (138,1 milyon dollarlıq) birinci, pambıq mahlıcı (74,9 milyon dollarlıq) ikinci və qızıl (sikkə kəsilməsində istifadə edilməyən, digər emal olunmamış formalarda - 70,4 milyon dollarlıq) üçüncü olmuşdur. Bunlarla yanaşı, həmin müddətdə qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti), albalı və gilas da ixrac siyahısında önə çıxmışdır. Ümumiyyətlə, 2019-cu ilin birinci yarımilliyi ərzində meyvə-tərəvəz ixracı 318,4 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 103,3 milyon, pambıq lifi ixracı 75,7 milyon, elektrik enerjisinin ixracı 51,9 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 46,7 milyon, kimya sənayesi məhsullarının ixracı 45,6 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 30 milyon, pambıq ipliyi ixracı 14,6 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 15,5 milyon dollarlıq olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə pambıq lifinin ixracı 2,6, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,2 dəfə, kimya sənayesi məhsullarının ixracı 49, pambıq ipliyinin ixracı 47, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 44, meyvə-tərəvəzin ixracı 15 faiz artmışdır.

İcmalda cari ilin iyun ayı üzrə də məlumatlar açıqlanıb. Bildirilir ki, iyun ayında qeyri-neft sektoru üzrə ixracın dəyəri 192 milyon dollar təşkil etmişdir. 2018-ci ilin iyun ayı ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 13 milyon dollarlıq və ya 7 faiz artmışdır. İyun ayında qeyri-neft sektoruna aid ən çox mal Rusiya (93,8 milyon dollarlıq), Türkiyə (32,5 milyon dollarlıq), İsveçrə (14,7 milyon dollarlıq), Gürcüstan (8,4 milyon dollarlıq) və Ukraynaya (5,7 milyon dollarlıq) ixrac edilmişdir.

İyun ayında da qeyri-neft sektoru üzrə ixracda pomidor (33,8 milyon dollarlıq) birinci olmuşdur. Sonrakı yerlərdə albalı və gilas (29,6 milyon dollarlıq), qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 13,5 milyon dollarlıq) qərarlaşmışdır. Həmçinin metanol (metil spirti), pambıq mahlıcı, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, qabığı təmizlənmiş meşə fındığı, emal olunmamış aşqarlanmamış alüminium və s. məhsullar qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

İcmalda qeyd edilir ki, ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 19 ölkəsinə xidmət də (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunmuşdur. ASC-nin xidmət ixracından qazancı onun ümumi gəlirlərinin 87,5 faizini təşkil etmişdir. İyun ayında isə "Azərkosmos" ASC dünyanın 18 ölkəsinə 2,5 milyon dollarlıq dəyərində xidmət göstərmişdir.

İxrac İcmalından o da məlum olur ki, hesabat dövründə Azexport.az portalına müxtəlif ölkələrdən 303,1 milyon dollar dəyərində ixrac sifarişləri göndərilmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ixrac sifarişləri 6,6 faiz artmışdır. İyun ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 41,3 milyon dollara çatmışdır ki, bu da ötən ilin eyni ayı ilə müqayisədə 20,8 faiz çoxdur. 2019-cu ilin birinci yarısında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (11,9 faiz), Türkiyə (6,6 faiz), Hindistan (5,7 faiz), ABŞ (5,5 faiz) və Birləşmiş Krallıq (5,3 faiz) qərarlaşmışdır.

Cari ilin iyun ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, tütün, toyuq əti və yumurtası, qənnadı məhsulu, soğan, çay, şərab, mühərrik yağı, nar şirəsi, kompot, mebel dəsti, tikinti materialı, naftalan yağı, bal, uşaq iç geyimi, gül və s. mallar üzrə daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 iyununadək (30 ay ərzində) Azexport.az portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 292,2 milyon dollar təşkil etmişdir.

Onu da qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport portalı ixracatçı şirkətlərin yeni bazarlara çıxışını dəstəkləmək yönündə fəaliyyətini genişləndirir. Bu məqsədlə portal ixrac zamanı sərbəst satış sertifikatına ehtiyac duyan şirkətlərin sorğularını operativ cavablandırır və onları müvafiq sənədlə təmin edir.

*Raqif MƏMMƏDLİ,*
*"Azərbaycan"*

## Polşa Asiya-Avropa nəqliyyat dəhlizinin inkişafında Azərbaycanla əməkdaşlığa hazırdır

Polşa Asiya ilə Avropa arasında nəqliyyat marşrutlarının inkişafında Azərbaycanla əməkdaşlığı davam etdirməyə hazırdır.

Bu barədə Polşa xarici işlər nazirinin müavini Marçin Pşidaç bildirib. M.Pşidaç deyib: "Polşa və Azərbaycan dəmir yolları Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişafında iştirak edir. Bu, ölkələrimizin coğrafi mövqeyinə uyğun gələn uğurlu bir layihədir. Nəqliyyat və logistika sahəsində əməkdaşlıq potensialı xüsusilə Avropa ilə Cənub arasındakı nəqliyyat marşrutları baxımından çox əhəmiyyətlidir".

Nazir müavini qeyd edib ki, iki ölkənin limanları və dəmir yolları arasında institusional əlaqələr artıq qurulub: "İqtisadi əməkdaşlıq üzrə ikitərəfli Hökumətlərarası Komissiya nəqliyyatla bağlı işçi alt qrupu yaradıb". O, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni də qeyd edib. M.Pşidaç bildirib: "Əlbəttə ki, Azərbaycan sabit və təhlükəsiz bölgə olduğu üçün "Cənub qaz dəhlizi" vasitəsilə qaz tədarükünün şaxələndirilməsində vacib tərəfdaş ola bilər".

## Almaniya və Azərbaycanın iş adamları Bakıda toplaşacaqlar

Sentyabrın 27-də Hyatt Konfrans Mərkəzində Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyinin dəstəyi ilə Bakıda "Sənaye və İnfrastrukturun Modernləşdirilməsi" mövzusuna həsr olunmuş Alman-Azərbaycan Biznes Forumunu təşkil edəcək.

Palatadan verilən məlumata görə, bu il forumun əsas mövzuları maliyyə və biznes mühiti, nəqliyyat və infrastruktur, kənd təsərrüfatı və qida sənayesidir. Tədbirin əsas məqsədi alman və Azərbaycan şirkətlərini biznes platforması ilə təmin etmək, onların yeni işgüzar əməkdaşlıq üçün mövcud imkanları müzakirə etməsi, öz layihə və təkliflərini təqdim etməsinə şərait yaratmaqdır.

Forumun açılış mərasimində Almaniya və Azərbaycanın yüksək vəzifəli hökumət nümayəndələrinin iştirakı gözlənilir.

Forumda iştirak ödənişsizdir. Tədbir ingilis dilində keçiriləcək və Azərbaycan dilinə sinxron tərcümə olunacaq.

## Naxçıvan MR-də səyyar sığorta xidməti genişlənir

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin səyyar sığorta xidməti öz əhatə dairəsini genişləndirməkdədir. Agentliyə verilmiş 2 səyyar xidmət avtomobili muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində vətəndaşların müraciətlərinə uyğun olaraq sığorta ərizələrinin qəbulu və müqavilələrin bağlanmasını mütəmadi şəkildə həyata keçirir.

Səyyar xidmət avtomobillərində internetə qoşulmuş kompüter avadanlıqları vasitəsilə göstərilən xidmətlər muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində yaşayan əhalinin rayon mərkəzlərinə getmədən işlərinin həll olunmasına və vaxta qənaət edilməsinə imkan yaradır. Səyyar sığorta xidmətinin yaradılmasından keçən müddət ərzində xidmət əməkdaşları Şərur, Babək, Ordubad, Şahbuz, Kəngərli, Sədərək rayonları və habelə Naxçıvan şəhərinin bütün ərazisi üzrə 73 inzibati ərazi dairəsində vətəndaşların müraciətinə baxıb, sığorta müqavilələri bağlanılıb. Bağlanan sığorta müqavilələri əsasən muxtar respublikada həyata keçirilən bütün növ icbari və könüllü sığortaları əhatə edir.

Hazırda muxtar respublikanın rayon dövlət sığorta agentlikləri 4 icbari və 7 könüllü sığorta üzrə fəaliyyətini həyata keçirir.

"Əsrin müqaviləsi" - 25

## "Dərinsulu Günəşli"dən hasilata başlanması Azərbaycanın yeni neft strategiyasının daha bir qələbəsi idi


Foto Ağaəli MƏMMƏDOVUNDUR

Əvvəli 1-ci səh.

Qazma, texnoloji təchizat və yaşayış platformasının üst modulları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) inşa edilib. Qurğunun dayaq bloku da BDÖZ-də tikilib, 2006-cı ilin payızında daşıma barjı üzərinə yüklənib və 2007-ci ilin yazında dənizə sola salınıb. İkinci platformanın dayaq bloku həmçinin BDÖZ-də inşa edilib. Dayaq blokları zavodun "BOS-Şelf" tikinti-quraşdırma sahəsində araya-ərsəyə gəlib.

BDÖZ-də əsas işlər AÇG layihəsinin əməliyyatçısı olan BP-nin həmin vaxtdakı podratçılarından biri - "MakDermott" (ABŞ) şirkəti tərəfindən görülürdü. Bu, bütün dünyada platformaların tikintisində və sualtı boruların çəkilişində zəngin təcrübəsi olan şirkətlərdəndir. AÇG-nin əvvəlki platformalarının və dənizdən Səngəçaladək uzanan sualtı neft və qaz kəmərlərinin inşaatçısı da "MakDermott" olub.

Hasilat, kompressor, suvurma və texnoloji təchizat platformasının üst modulları isə Bibiheybətdəki ATA ("Azfen-Tekfen-AMEK") tikinti-quraşdırma sahəsində inşa edilib. ATA Azərbaycan-Türkiyə-Böyük Britaniya alyansıdır və o, bu gün də sözügedən sahədə fəaliyyət göstərir.

Sualtı xətlər bu kompleksi "Azəri" yatağından çəkilmiş 30 düymlük iki neft və 28 düymlük bir qaz kəməri şəbəkəsinə birləşdirir. "Dərinsulu Günəşli"dən əldə olunan hasilat həmin sualtı borularla Səngəçal terminalına nəql edilir.

"Dərinsulu Günəşli"ni digər layihələrdən fərqləndirən onun əlavə bir proqramının olmasıdır. Bu, əvvəlki yataqların işlənməsində rast gəlinməyən sualtı suvurma proqramıdır. Proqramın həyata keçirilməsi yataqdakı quyuların platformadan aralıda yerləşməsi səbəbindən irəli gəlir və onun məqsədi, qısaca desək, hasilatın sabit saxlanılmasına və artırılmasına xidmət edir.

"Dərinsulu Günəşli"nin dənizdəki və qurudakı genişmiqyaslı, çoxşaxəli tikinti-quraşdırma işlərini onlarca podratçı və subpodratçı müəssisə, minlərlə yerli və xarici vətəndaş həyata keçirmişdir.

AÇG-nin digər yataqlarında olduğu kimi, "Dərinsulu Günəşli"də də hasilat sabit və təhlükəsiz şəkildə davam edir. Bu ilin birinci yarısında yataqdan gündə orta hesabla 96 min barel neft alınıb. Hasilata başlandığı dövrdən 2018-ci ilin sonunadək "Dərinsulu Günəşli" 478,1 milyon barel və ya 64,8 milyon ton neft verib. Yatağın keçənilki hasilatı 38,2 milyon barel (5,2 milyon ton) təşkil edib.

Yeri gəlmişkən AÇG-dəki iştirak paylarını xatırladaq: Layihənin operatoru olan BP (Böyük Britaniya, 30,37 faiz), SOCAR (Azərbaycan, 25 faiz), "Şevron" (ABŞ, 9,57 faiz), "İnpeks" (Yaponiya, 9,31 faiz), "Ekvinor" (Norveç, 7,27 faiz), "EksonMobil" (ABŞ, 6,79 faiz), TPAO (Türkiyə, 5,73 faiz), "İtoçu" (Yaponiya, 3,65 faiz), ONGC Videş Limited (Hindistan, 2,31 faiz).

AÇG-nin, o cümlədən "Dərinsulu Günəşli"nin salnaməsi yeni hadisələr, yeni uğurlarla zənginləşir. Bu il mayın 29-da XXVI Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı nitqində Prezident İlham Əliyevin dediyi kimi: "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni bu o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Kənd yollarının yenidən qurulması davam edir

**"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində ümumi uzunluğu 35,9 kilometr olan Xaçmaz-Niyazoba-Əbilyataq-Qarğalıq avtomobil yolunun yenidən qurulmasına başlanılıb.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sözügedən avtomobil yolu bir neçə istiqamət üzrə 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulur. Yolun 20,5 kilometri Xaçmaz-Əbilyataq və 7,7 kilometri Qarğalıq kənd hissələri, həmçinin Qaraçı, Güləlan, Cığatay, Qarabağlı, Ağçay, İlxıçı və Niyazoba kəndlərinin giriş yollarıdır. Giriş yollarının ümumi uzunluğu isə 7,7 kilometrdir.

Hazırda yeni yol yatağı inşa olunur. Bundan başqa, yol boyu zəruri olan yerlərdə sel və yağış sularının yol yatağından kənar edilməsi üçün 5 yerdə müxtəlif diametrlərə malik yeni suötürücü dəmir-beton borular quraşdırılacaq, mövcud borular isə təmir olunaraq bərpa ediləcək.

Layihəyə uyğun olaraq zəruri yerlərdə avtonəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi və sürücülərin düzgün istiqamətləndirilməsi məqsədilə yol nişanları, məlumatverici lövhələr, kilometr göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, yol-cizgi və yolgöstərici xətlər çəkiləcək.

Yolun istifadəyə verilməsi ilə yol boyu 8 yaşayış məntəqəsində yaşayan 6 minə yaxın əhalinin gediş-gəlişi xeyli rahatlaşacaq, yük və sərnişin daşınması asanlaşacaq.

## Qobustanda 14,6 ton bal istehsal olunub

Qobustan arıçıları cari mövsümdə bəslədikləri arı ailələrindən 14,6 ton bal götürüblər. Bu il süzülən bal ötən ildəkindən 2,1 ton çoxdur.

Hazırda Qobustanda 3400 baş arı ailəsi var. Ən çox məhsul Təklə, Xilmilli, Nabır kənd, Qobustan şəhər ərazi dairələrində əldə olunub.

Təklə kəndindən olan peşəkar arıçı Ramiz Qaçayev: "Arıçılıq bizim ailədə ənənəvi təsərrüfat sahəsidir. Hazırda 120 yeşik arı bəsləyirik. Bu il hava şəraiti arıçılıq üçün heç də əlverişli keçmədi. Buna baxmayaraq, hər qutudan orta hesabla 10 kiloqram təmiz bal götürdük". R.Qaçayev arıçılığın inkişafına verilən dövlət dəstəyindən danışaraq bildirib ki, hər arı ailəsinə verilən subsidiya onları təsərrüfatlarını genişləndirməyə, eləcə də bu sahəyə marağı olanları yeni təsərrüfat yaratmağa həvəsləndirib.

*Xəbərlər AZƏRTAC,*
*Trend və digər informasiya agentliklərinin materialları əsasında hazırlanmışdır*

# Tələbələrlə görüş

## Ali məktəblərə qəbul olunan ağcabədili məzunların sayı son 15 ildə 8 dəfədən çox artmışdır

Cari ildə ali məktəblərə qəbul olunmuş ağcabədili məzunlarla görüş keçirilmişdir. Görüşə tələbə adı qazanmış gənclər, onların valideynləri, məktəb direktorları, rayon ictimaiyyətinin nümayəndələri dəvət olunmuşdular. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər qoyub xatirəsini ehtiramla yad etdilər.




Sonra tədbir "Qızılsaray"da davam etdirildi. Rayon təhsil şöbəsinin müdiri İsmayıl Həsənov çıxış edərək ölkəmizdə təhsilə dövlət qayğısından, Ağcabədidə bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsindən, qazanılan uğurlardan danışdı. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın Ağcabədi təhsilinin inkişafına, yeni məktəb və uşaq bağçalarının tikintisinə xüsusi qayğı və diqqət göstərdiklərini minnətdarlıqla vurğuladı.

2018-2019-cu tədris ili Ağcabədi təhsili üçün bütövlükdə uğurlu olub. Respublika üzrə keçirilən fənn olimpiadalarında M.F.Axundov adına məktəb-liseyin 11-ci sinif şagirdi Anar Məmmədov və Cəfərbəyli kənd tam orta məktəbinin 10-cu sinif şagirdi Rəvan Cəfərov qızıl, Sarıcalı kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Yağmur Hüseynova gümüş medala layiq görülmüşlər. Yağmur Hüseynova orta məktəbi əla qiymətlərlə bitirdiyinə görə Təhsil Nazirliyi tərəfindən qızıl medalla təltif olunmuşdur. Bu il Ağcabədidən ali məktəblərə 449 nəfər məzun qəbul olunmuşdur. Tələbə adı qazanan gənclərin 11 nəferi 600-700 arası, 41 nəfəri isə 500-600 arası bal toplamışdır.

Tələbə adı qazanan gənclər adından Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Yağmur Hüseynova, Bakı Dövlət Universitetinin tələbəsi Anar Məmmədov, Azərbaycan Dillər Universitetinin tələbəsi Çinarə Hacıyeva, Azərbaycan Tibb Universitetinin tələbəsi Kamil Ələkbərzadə, valideyn Seymur Sadıqov və başqaları çıxış edərək qayğı və diqqətə görə Prezident İlham Əliyevə, orta məktəb müəllimlərinə minnətdarlıqlarını bildirdilər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tələbə adı qazanmış gəncləri təbrik etdi, ölkədə təhsilin inkişafına davamlı dövlət qayğısını diqqətə çatdırdı.

Milli Məclisin deputatı Tahir Rzayev yüksək bal toplayan tələbələrə təhsildə uğurlar arzuladı.

Tədbirin sonunda qəbul imtahanlarında yüksək bal toplayan gənclərə Ağcabədi Rayon İcra Hakimiyyəti tərəfindən fəxri fərman və qiymətli hədiyyələr təqdim olundu.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Məktəbli bazarlığı: qiymət də fərqli, keyfiyyət də...










"Nənə, o çantanı istəmirəm, mənə qırmızı çanta al" deyə balaca əlləri ilə nənəsinin ətəyini dartışdıran qızcığaz mağazanın divarında sıralanmış al-əlvan çantaları heyranlıqla süzür...

Bu il birinci sinfə yollanacaq Nuray nənəsi ilə məktəb bazarlığı edir, ürəyinə yatan rənglərdə, formalarda, bəzəklərdə olan müxtəlif dərs ləvazimatlarını həvəslə seçərək səbətə yığır. Çox sevinir, məktəbli olacaq, böyük bacısı Nilufər kimi saçlarına ağ bant vuracaq, məktəbli paltarı geyinəcək və xoşladığı qırmızı çantasını da çiyninə keçirərək məktəbə yollanacaq. Dərsə haraylayan ilk zəngə qulaq verəcək, müəllimləri, sinif yoldaşları ilə tanış olacaq, hərflərin sirrinə, rəqəmlərin qüdrətinə vaqif olacaq...

"Elmlər Akademiyası" metro stansiyası yaxınlığında yerləşən dərs ləvazimatları satılan mağazadayıq. Məktəb alış-verişi edən valideyn və şagirdlərin xoş həyəcanına, bazarlıq təlaşına şahidlik edirik...

Yeni tədris ilinin başlamasına az qalıb. Bu elə bir ərəfədir ki, ailəsində məktəbli olan hər kəs uşaqlarına məktəb bazarlığı etmək, onların bütün ehtiyaclarını ödəmək istəyir.

Çalışırlar ki, həm keyfiyyətli mal alsınlar, həm də büdcələrinə uyğun olsun. Təbii ki, bazarlıq üçün vacib bu iki şərti birgə əldə etmək o qədər də asan deyil. Ən müxtəlif satış obyektlərində çeşid bol, qiymətlər müxtəlifdir. Keyfiyyətsiz mal ucuz, yaxşısı isə bahadır. Sadəcə alıcı sərraf, mal tanıyan olduğu təqdirdə nisbətən ürəyəyatan və uyğun bazarlıq etmək mümkündür. Bu əsnada iki və daha artıq övladını məktəbə göndərən valideynlər daha çox çək-çevir edirlər...

Əksər valideynlərin ürəyindən keçən "görəsən, bir uşağın məktəb xərci neçəyə başa gəlir" sualını cavablandırmaq üçün üz tutduq məktəb ləvazimatları satılan ünvanlara, Bakı Metropoliteninin stansiyaları yaxınlığında quraşdırılan təhsil yarmarkalarına...

### Alıcılar orta qiymətli mallara üstünlük verirlər

"Bu il oğlum birinci sinfə gedir, onun üçün bazarlığa çıxmışam. Onu hər zaman məktəbli formasında, beli çantalı şəkildə gözlərim önündə canlandırırdım. İndi o günə az qalıb və çalışıram ki, lazım olan bütün məktəb və dərs ləvazimatlarını alım" deyə alış-veriş edən Arzu xanım sevinclə fikirlərini bizimlə bölüşür.

O söyləyir ki, artıq iki gündür məktəb bazarlığı edir və bir-iki dərs ləvazimatından başqa nə lazımdırsa alıb: "Çalışırdım ki, baha da olsa keyfiyyətli mallar alım. Bilirəm ki, keyfiyyətsiz mal alsam, həm uşaq əziyyət çəkəcək, həm də mən ikiqat xərcə düşəcəm".

Başqa bir valideynlə söhbət edirik. Dilbər adlı bu xanım deyir ki, qızı 5-ci sinfə, oğlu isə 8-ci sinfə gedəcək: "Dəftər, qələm, karandaş, albom və bəzi dərs ləvazimatlarıı almışam. İndi hər ikisi üçün çantaya baxıram. Ötən il 20 manatdan onlara çanta almışdım. Amma həm çantalar keyfiyyətsiz idi, həm də dərs vəsaitinin ağırlığından onları heç beş ay götürə bilmədilər. Məcbur olub yenisini aldım, onlar da bir neçə aya xarab oldu. İndi çalışıram daha keyfiyyətli çanta alım, amma qiyməti baha olduğundan iki çantanı birdən almağa gücüm çatmır".

Bu mağazada satılan çantaların ən ucuzu 20, ən bahası isə 130 manata təklif olunur.

Satıcı söyləyir ki, əsasən alıcılar orta qiymətli 40-45 manata olan çantaları almağa üstünlük verirlər: "Təsadüfi hallarda kimsə baha çanta alır. Alıcılar çox ucuz çantaları da almırlar. Amerika firmalarının markaları bahadır. Orta qiymətə satılan 35-40-50 manatlıq çantalar Türkiyə istehsalı, daha ucuzları isə Çin malıdır".

Mağaza təmsilçisi onu da vurğuladı ki, bəzi mallarda 3-5 qəpik artım olsa da, ötən ilə nisbətən elə də bahalaşma yoxdur.

Məktəblilər üçün köynək, ayaqqabı satılan başqa bir mağazaya daxil oluruq. Ölçüsündən asılı olaraq burada qız və oğlan üçün köynəklərin qiyməti 20-25 manatdır. Kolqotkalar 3-5-8 manat civarındadır. Oğlan və qızlar üçün müxtəlif cür payızlıq ayaqqabılar 20-60 manata satılır.

### Yarmarkadakı qiymətlər mağazadakı qiymətlərə nisbətən ucuzdur

"Elmlər Akademiyası" və "Koroğlu" metro stansiyaları yaxınlığında yerləşən təhsil yarmarkalarındakı qiymətlərlə də tanış oluruq.

İki oğlu ilə məktəb bazarlığı edən Vüqar bildirir ki, mağazalara nisbətən yarmarkalarda qiymətlər ucuzdur. Məsələn, sadə qələm 20-30 qəpik, 12, 24, 48, 60 vərəqli dəftərlər müvafiq olaraq 12 qəpik, 1 manat, rəsm albomları vərəq sayından asılı olaraq 1.50 qəpiklə 3.50 qəpik arasında dəyişir. Rəngli kağız 1-2 manat, rəngli karandaşlar sayına, keyfiyyətinə görə 1 manat 50 qəpiklə 8-12 manat arasındadır. Sadə karandaş 18, 50 qəpik, xətkeşlər materialına görə 30, 50 qəpik, 1 manata satılır. Bir qutu flomaster keyfiyyətindən asılı olaraq 2-5 manat, 6-12 ədədli plastilinlər 1.50 manatdan 5-10 manata, yapışqanlar 30-50 qəpiyədir. Qələmyonan 70 qəpik, 2 manata, qələmqablarını 1 manat 50 qəpikdən 10 manatadək qiymətə almaq olar. Su qabları 2-10 manat, termoslar 8-15 manata təklif olunur. Çantaların qiyməti isə 10 manatdan 60 manata qədərdir. Bu yarmarkada Rusiya, Türkiyə, Çin markalı çantalar satışa çıxarılıb. Satıcı bildirdi ki, bütün dərs ləvazimatlarını onlardan alan müştərilərə müəyyən endirimlər də edirlər.

Müşahidə edirik ki, alıcılar əsasən orta qiymətdə olan malları alır, qızıl ortanı tapmağa çalışırlar. Oğlu üçün bazarlıq edən Zeynəb xanım gileylənir ki, istədiyi keyfiyyətdə mal almaq onun üçün çətindir: "Yaxşı mal çox bahadır, ucuzu isə çox keyfiyyətsizdir. Buna görə də nisbətən cibimə uyğun və orta keyfiyyətli mallar alıram. Təxminən paltar, ayaqqabı, çantaya birlikdə 150 manat xərcləmişəm. Dərs ləvazimatlarını isə indi alacam".

Xanım onu da qeyd etdi ki, şalvar və pencəyi Bakı Tikiş Evindən (BTE) alsa da, köynəyi başqa mağazadan alıb. Arqumenti isə tikiş evində satılan köynəklərin keyfiyyətinin aşağı olmasıdır. Ümumiyyətlə, bir neçə müddətdir ki, məktəblərdə vahid məktəbli geyimi tətbiq olunsa da, bir çox hallarda buna riayət edilmir, xüsusilə də yuxarı sinif şagirdləri bu paltarları geyinməkdən imtina edirlər. Valideynlər əsasən paltarların keyfiyyətindən narazılıq edirlərsə, şagirdlər həm də BTE-nin tikdiyi paltarların modelinin onların ürəyinə yatmadığını dilə gətirirlər.

Apardığımız araşdırma zamanı məlum oldu ki, bir uşağın məktəbə yola salınması üçün lazım olan dərs vəsaitlərinə orta hesabla təxminən 150-200 manat xərcləmək lazım gəlir.

***Y.MUSAYEVA,***
***"Azərbaycan"***

# Hədəfini düzgün seçən gənc

## Toğrul HACIZADƏ: "Sahəsindən asılı olmayaraq seçdiyin ixtisasın peşəkarı olmalısan"

**"Düşünürəm ki, təsadüfi qələbə olmur və nəticə əldə etmək üçün sistemli çalışmaq lazımdır. Sonradan yox, elə ibtidai siniflərdən etibarən bütün dərslərimi yaxşı oxumuşam və bu da nailiyyət qazanmağımın əsl səbəblərindəndir. Məktəbdə dərslərə diqqətlə qulaq asmaq lazımdır. Düzdür, hazırlıqlar da müəyyən mənada bilik səviyyəsinin yüksəlməsinə kömək edir, amma əsas təməl məktəbdə qoyulur. Məktəbdə dərslərimi tam öyrənib bitirirdim, hazırlığa isə ancaq təkrar üçün gedirdim. O cümlədən də imtahana hazırlaşanda məsuliyyətli olmaq vacibdir".**



Bu fikirləri II ixtisas qrupu üzrə keçirilən builki qəbul imtahanlarında ölkə üzrə ən yüksək bal toplayan vunderkind gənclərimizdən biri, Toğrul Hacızadə deyir. Akademik Zərifə Əliyeva adına liseyin qızıl medallı məzunu Toğrul yaz imtahanlarında 692 bal toplayıb və o, dünyanın ən nüfuzlu universitetlərindən biri olan Türkiyənin Orta Doğu Texniki Universitetinin İqtisadiyyat bölməsini seçib.

Orta məktəbdə iki dəfə, X-XI siniflərdə coğrafiya fənni üzrə respublika fənn olimpiadalarında gümüş medal qazanan Toğrul Hacızadə uğur yolundan danışır, ondan sonra gələn gənclərin də məqsədlərinə çatma istiqamətində diqqət yetirmələri vacib məqamlara aydınlıq gətirir.

### "İmtahan qarşıya qoyduğun məqsədlərə çatmaq üçün bir vasitədir"

Toğrul deyir ki, builki buraxılış imtahanlarından 295, yaz qəbul imtahanından 397 bal toplayıb. Kifayət qədər yüksək, 692 balla istədiyi ixtisasa yiyələnə biləcəyi üçün yay imtahanlarında iştirak etməyə lüzum görməyib: "Builki imtahanda sistem fərqli olduğuna görə bütün abituriyentlər, valideynlər çox həyəcanlı idilər, o cümlədən də mən. İmtahandan qabaq özümü çox da hazırlıqlı hiss etmirdim. Düşünürdüm ki, imtahanda hazırlıq məqsədilə iştirak edirəm, qarşıda yay imahanı var. Amma imtahan zamanı suallar yazılmış vərəqi qarşımda görəndə baxdım ki, narahatlığa ehtiyac yoxdu. Sualları düzgün cavablandıra biləcəyəm".

Toğrul qeyd edir ki, imtahanlarda uğur qazanmaq üçün təkcə bilik yetərli deyil, əlavə dünyagörüşü də lazımdır: "Məsələn, tarixi öyrənəndə heç zaman hadisələrin ardıcıllığını əzbərləmirdim, təfəkkürümə görə bilirdim ki, bu müqavilənin şərti, yaxud döyüşün nəticəsi necə ola bilər. Hər şeyi əzbər yadda saxlamaq olmaz. Hansısa oxuduğun məlumat, baxdığın tarixi, sənədli filmlər bu mənada çox kömək edir. Liseylərdə X-XI siniflərdə başqa fənlər əvəzinə ixtisas fənlərinə əlavə saatlar verilir. Bu zaman filmlərə baxır, müəllimin əlavə məlumatlarına qulaq asırdıq, yəni biliyi sadəcə kitablardan almırdıq. Məlumatı başqa yerlərdən yadda saxlamaq mənbəyi olanda daha asan olur".

Gələcək iqtisadçı deyir ki, əvvəlcə valideynləri onu həkim görmək arzusunda olublar, amma sonra seçiminə hörmətlə yanaşıblar. Anası müəllim, atası isə neft mühəndisi olan Toğrulun ümumiyyətlə, qohumları arasında da əksəriyyət ya müəllim, ya da neft mühəndisidir, bircə o, fərqli sahəni, iqtisadiyyatı seçib. Özünü bu sahədə daha yaxşı ifadə edəcəyini düşünür.

### Psixoloji dəstək vacibdir

İmtahana hazırlaşan müddətdə həm müəllimlərindən, həm də ailəsindən dəstək aldığını söyləyən Toğrul vurğulayır ki, bu mərhələdə xüsusilə psixoloji kömək ən mühüm məqamdır: "Bunun üçün ailəmin dəstəyi çox olub. Məsələn, hər zaman deyirdilər ki, "imtahanın nəticəsi nə olur-olsun, sən bizim oğlumuzsan. Heç zaman düşünmə ki, aşağı nəticə göstərsən, biz pis olacağıq". Valideynlərim bilirdilər ki, yaxşı oxuyuram, nəticə yaxşı olacaq, amma yenə də sona qədər mənə psixoloji dayaq durdular. Məni heç kimlə müqayisə etmədilər, basqı göstərmədilər, fikirlərimə hörmətlə yanaşdılar, oxumağım üçün hər cür şərait yaratdılar. Bütün bunlara görə imtahana hazırlaşan müddətdə, imtahanda da özümü rahat hiss etmişəm. Düşünürəm ki, uğur qazanmağımda məhz bu sadaladığım amillərin də təsiri var".

Boş zamanlarında üzməyi, mütaliə etməyi, filmlərə baxmağı sevdiyini söyləyən Toğrul bildirir ki, əlavə bu kimi fiziki və mənəvi aktivliklər dərs oxumağa və imtahanlara hazırlaşmağa mane olmur, əksinə, motivasiya verir: "Həmçinin intellektual oyunlarda da iştirak edirəm. Hətta 2 dəfə "Əlaçı" və 1 dəfə "Mən azərbaycanlıyam" televiziya intellektual yarışmasında qalib olmuşam. Sosial şəbəkədə də aktivəm, məlumatlarla tanış olur, dostların paylaşımlarına baxır, özüm də paylaşımlar edirəm".

Toğrul qeyd edir ki, sahəsindən asılı olmayaraq seçdiyin ixtisasın peşəkarı olmalısan: "Mən də seçim edəndə iqtisadiyyat sahəsində bacarıqlı olacağımı düşündüyüm üçün bu sahənin üzərində durdum. Hər zaman dərslərə məsuliyyətlə yanaşmışam. Düşünürəm ki, gələcək karyeramı qurmağımda da bu davranış mənə kömək edəcək".

Bilikli, dünyagörüşlü, enerjili, kreativ gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Gənclərin bu potensiallarını zamanında aşkarlayıb düzgün istiqamətə yönəltmələri isə olduqca vacibdir. Ölkəmizdə bu xüsusiyyətə malik istedadlı gənclərimizin sayı çoxdur. Elə bugünkü həmsöhbətimiz Toğrul Hacızadə də gələcək hədəflərini düzgün müəyyənləşdirən gənclərimizdəndir.

Ona bu məsuliyyətli və şərəfli yolda uğurlar arzulayırıq.

***"Azərbaycan"***

# "Əgər yaxşı mütəxəssis olmaq istəyiriksə, sevdiyimiz ixtisası seçməliyik"

## Qəbul imtahanlarında ən yüksək bal toplamış Əsmər Hacızadə uğur qazanmağın sirlərini açıqladı

**Ölkəmizdə təhsilin inkişafı istiqamətində ardıcıl uğurlu islahatlar aparılır. Bu islahatlar dövlətin gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir və onların təhsil səviyyələrinin yüksəlməsinə, elmi inkişafına xidmət göstərir. Bu istiqamətdə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar gənclərin təhsilə, elmə, intellektual fəaliyyətə cəlb edilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin maddi vəziyyətlərinin, sosial rifahının yaxşılaşdırılmasına hesablanıb.**



Elə bu il fevralın 14-də dövlət başçısının imzaladığı fərmana əsasən ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği 210 manata qaldırılıb. Bu qərar təhsil ictimaiyyətinin, ələlxüsus da yüksək nəticə göstərərək ali məktəbə qəbul olunan tələbələrin sevincinə səbəb olub. Həmçinin bu, ali məktəblərə yüksək balla qəbul olunmağı hədəfləyənlərə əlavə stimul verib.

"Yaz imtahanlarından 684.1 bal yığmışdım. Bu, kifayət qədər yüksək baldır və mən istədiyim ali məktəbə qəbul oluna bilərdim. Amma düşündüm ki, birdən bu bal Prezident təqaüdçüsü olmağıma yetməz və qərara gəldim ki, yay imtahanlarında da iştirak edim. Beləliklə, ikinci imtahandan 690.5 bal yığaraq bu il ən yüksək bal toplayan tələbələr sırasında yer aldım. Artıq mən də sevinc və qürurla deyə bilərəm ki, Prezident təqaüdçüsüyəm".

Bu fikirləri Dövlət İmtahan Mərkəzinin (DİM) I ixtisas qrupu üzrə keçirdiyi qəbul imtahanlarının nəticələrinə görə yüksək bal (690.5) toplamış Əsmər Hacızadə söylədi.

### "Builki qəbul imtahanları çətin yox, bir qədər fərqli idi"

Bakı Ali Neft Məktəbinin (BANM) informasiya təhlükəsizliyi ixtisasını seçən Əsmər Hacızadə Xətai rayonunda yerləşən 191 nömrəli tam orta məktəbin məzunudur. Kompüterə böyük marağı olduğu üçün məhz bu sahə üzrə peşəkar mütəxəssis kimi formalaşmağı qarşısına məqsəd qoyub.

Bu il ilk dəfə ali məktəblərə qəbul imtahanları kurrikulum üsulu ilə keçirilib. Bəs, görəsən, yeni sistemdə imtahan vermək abituriyentlərə hansısa çətinlik yaratmayıb ki?

Əsmər deyir ki, sistem dəyişdiyi üçün imtahanda açıq tipli suallardan da istifadə olunub: "Builki imtahanlar çətin yox, sadəcə əvvəlkilərdən bir qədər fərqli idi. Hansı ki, neçə illər idi eyni tipli test suallarına öyrəşmişdik. Buna görə də il-bəil 700 bal toplamaq asanlaşırdı. İndi sistem dəyişdiyi üçün abituriyentlər bir qədər fərqlilik gördülər. Məsələn, Azərbaycan dilindən açıq tipli suallar var idi və onların qiymətləndirilməsində kompüter yox, insan faktoru yer alırdı. Meyara əsasən açıq sualların 2-3 doğru cavabı olur və əgər o cavablardan heç birinə uyğun cavab yazmasan, bal ala bilmirsən. İmtahanda tərtib olunan suallarda biliklə yanaşı dünyagörüşü də tələb olunurdu ki, kreativliyini işlədəsən və düzgün cavab yazasan. Bu mənalarda builki imtahanda maksimum bal yığmaq əvvəlki test üsulundan çətin idi. Amma buna baxmayaraq, düşünürəm ki, bu sistem daha yaxşıdır, çünki daha intellektual abituriyentlərin şansını artırır".

### Uğur qazanmağın açarı

Orta məktəbdə əla qiymətlərlə oxuyan Əsmər Hacıyeva IX və XI sinifləri qırmızı attestatla bitirib. Məktəblilərarası olimpiadalarda iştirak edərək yüksək nəticələr əldə edib, VIII sinifdə oxuyarkən kimya fənnindən keçirilən olimpiadada III yerə layiq görülüb.

İstedadlı gənc düşünür ki, onu yaşıdlarından fərqləndirən xüsusi cəhətlər yoxdur: "Ola bilsin ki, dərsləri bəzimiz daha tez, bəzimiz bir az gec anlayırıq. Sadəcə daha gec anlayanlar bir az çox çalışmalıdırlar. Amma tövsiyə etmirəm ki, zamanlarının hamısını dərs çalışmaqla keçirsinlər. Mən dərslərimə də, istirahətimə də zaman ayırmışam. Düşünürəm ki, uğur qazanmağımın əsas səbəbi düzgün vaxt bölgüsü olub, özümü yormamışam. Ən çox 4 saatımı dərsə həsr edib, digər zamanımı istirahətə, idmana və digər işlərə sərf etmişəm".

Dərsdən əlavə musiqi dinləməyi, xüsusilə bədii kitab oxumağı çox sevdiyini söyləyən gələcəyin kompüter mütəxəssisi qeyd edir ki, düşüncə qabiliyyətini artırmaq üçün sadəcə dərs oxumaq kifayət deyil, mütaliə də vacibdir: "Müşahidə edirəm ki, bədii ədəbiyyat oxuyan gənclərin düşüncə tərzi fərqli olur, yeni məsələlərə fərqli aspektlərdən yanaşa bilirlər. Hətta qəbul imtahanlarında da bu bizə kömək edir. III qrup olmasam belə, Azərbaycan dilindən açıq suallarda bədii ədəbiyyat oxumağım köməyimə gəldi".

Gənc tələbə, "məncə, yüksək bal toplayan abituriyentlər ən yüksək qəbul balı olan ixtisasları yox, öz istədikləri, onlar üçün gələcəkdə faydalı olacaq seçimlər etməlidirlər" deyə vurğulayır və deyir ki, bəzən elə hallara rast gəlinir ki, arzuolunan ixtisasın balı digərlərindən daha aşağı olur, abituriyent isə daha yüksək bal toplayır: "Bu zaman bir çox abituriyent bala görə seçim edir. Mənə görə bu, çox yanlışdır. Əgər yaxşı mütəxəssis olmaq istəyiriksə, sevdiyimiz ixtisası seçməliyik".

Əsmər Hacızadə təhsilini uğurla başa vuraraq, xarici universitetlərin birində magistratura təhsili almaq istəyir: "Əsas məqsədim ixtisasım üzrə yaxşı mütəxəssis olub, peşəkar karyera qurmaqdır. Ən yaxşı mütəxəssis olana qədər çalışacağam və ölkəmizə faydalı olmaq üçün əlimdən gələni edəcəyəm".

Bu yolda işıqlı gəncimizə uğurlar, gələcəkdə qurmağı planlaşdırdığı karyerasında müvəffəqiyyətlər arzulayırıq.

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Məmur vətəndaşın yanında olanda...





Əvvəli 1-ci səh.

Məsələ operativ həll olundu. Problemin belə tezliklə həll ediləcəyini gözləməyən təsərrüfat sahibi indi ölkə rəhbərinə olduqca minnətdardır.

Başqa bir ərizə isə Qazax şəhəri Səməd Vurğun küçəsinin sakinləri tərəfindən gəlmişdi. Sakinlər yazırdılar ki, məhəllədə yeni elektrik transformatoruna, dayaqların və naqillərin dəyişdirilməsinə ehtiyac var. Ərizə ilə bağlı Elektrik Şəbəkəsinin rəisi ilə birlikdə həmin məhəllədə olan RİH başçısı sakinlərlə görüşmüşdür. Cəmi bir həftə ərzində sakinlərin qaldırdıqları məsələ öz həllini tapmışdır.

Rayon rəhbərliyi Qazax şəhərinin Heydər Əliyev prospekti 144 nömrəli ünvanda yaşayan Dilşad Paşayevanın ərizəsi ilə əlaqədar onun mənzilində də olmuşdur. Dilşad Paşayeva ona məxsus torpaq sahəsinin zəbt olunduğunu bildirmişdi. Elə yerindəcə məsələnin araşdırılması ilə bağlı tapşırıq verilmişdir. Bir neçə gündən sonra yaşlı qadının şikayəti təmin olunmuşdur.

Növbəti səyyar görüşlərdən birində Ürkməzli kəndinin sakinləri su ilə təminat məsələsini qaldırmışlar. RİH başçısı bununla bağlı tapşırıq vermiş və nəticəsini yoxlamaq üçün bir neçə gündən sonra həmin kəndə getmiş və verilən tapşırığın icrası ilə bağlı görülən işlərlə maraqlanmışdır. Kənd sakinləri qaldırdıqları problemin həllinə görə razılıqlarını bildirmişlər.

Ağköynək kəndində keçirilən səyyar görüşdə isə kənd sakinləri subartezian quyusundan istifadədə özbaşınalığın hökm sürdüyünü diqqətə çatdırmışlar. Görüş zamanı həmin quyudan növbəlilik əsasında istifadə olunması üçün kəndin ica nümayəndəliyinə və bələdiyyəyə tapşırıq verilmişdir.

Rayon icra hakimiyyətinə digər məsələlərlə bağlı müraciətlər də olur. Məsələn, şəhər sakini, rəssam Ülvi Cəfərov fərdi sərgisinin açılması üçün müraciət etmiş və onun istəyi yerinə yetirilmişdir. Daş Salahlı kəndinin sakini Pəri Məmmədova isə nəvəsinin işlə təmin olunması barədə müraciət etmişdi. Hazırda onun nəvəsi tikinti təşkilatında çalışır.

Ümumiyyətlə, rayonda müraciətlərin çoxu işlə təminat məsələsidir ki, bu sahədə də imkan daxilində vətəndaşlara lazımi kömək göstərilir. Məsələn, şəhər sakinləri Dürrə İbrahimovanın, Dürdanə Orucovanın, Yuxarı Əskipara kənd sakini Orxan Vəliyevin, Kəmərli kənd sakini Aslan Cəlilovun, Qarapapaq kənd sakinləri Anar Yaqubovun övladlarının işlə bağlı müraciətləri müsbət həll olunmuşdur. Ağköynək kənd sakini Dilqəm Bağırovanın, Qarapapaq kənd sakinləri Sevda Bağırovanın, Süsən İsgəndərovanın, eləcə də Dilarə Mustafayevanın onlara məxsus pay torpaqlarının sənədləşməsində yaranan çətinliklərlə bağlı müraciətləri də müsbət həll olunmuşdur. Şəhər sakinləri Mehnurə Möhtərəmovanı, Ruhiyyə Məmmədovanı, Qarapapaq kənd sakini Tacir Sarıyevi, Daş Salahlı kənd sakini Famil Aşırovu, İkinci Şıxlı kənd sakini Kamandar Süleymanovu rahatsız edən problemlər də həll edilmişdir.

Qazax rayonunda məskunlaşan məcburi köçkünlər də diqqət mərkəzindədir. Bu yaxınlarda rayonun Nəriman Nərimanov qəsəbəsində məskunlaşmış Aşağı Əskipara, Yuxarı Əskipara, Barxudarlı və Sofulu kənd sakinləri rayon icra hakimiyyətinə etdikləri müraciətdə illər öncə onlara məxsus olan fərdi qaz sayğacında yaranmış borcun yeni quraşdırılmış SMART tipli sayğaclardan silinməsini istəmişlər. RİH başçısı ərizə ilə əlaqədar həmin qəsəbədə sakinlərlə görüşmüş, qaldırılan məsələnin tezliklə həll ediləcəyini bildirmişdir. Qəsəbə sakinləri isə RİH başçısının verdiyi sözə əməl edəcəyinə əmindirlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# İşğalçılıq üzərindən yürüdülən militarist siyasət

## Yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma “müstəqillik” heç bir gələcək vəd etmir

Əvvəli 1-ci səh.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının ölkəmizin işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejimin qeyd etdiyi “müstəqillik günü” ilə bağlı bəyanatında da qeyd olunur ki, işğal olunmuş ərazilərdən qovulan yüz minlərlə azərbaycanlının qanı bahasına və etnik təmizləmə siyasəti nəticəsində əldə edilmiş qondarma “müstəqillik” heç bir gələcək vəd etmir: “Ermənistan KİV-də yayılan məlumata əsasən, Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejim “müstəqillik günü” adı altında növbəti təxribat xarakterli “tədbirlər” keçirməklə məşğuldur. Cinayətkar hərbi xunta tərəfindən məsxərə xarakterli növbəti “müstəqillik günü tədbirləri”nin qeyd edilməsi bir daha təsdiq edir ki, Ermənistan və onun əlaltısı olan cinayətkar rejim münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı deyil və danışıqlara xələl gətirmək məqsədilə istənilən imkanı “hədər vermir”.

İcma bəyan edir ki, beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin işğalın nəticələrini tanımadığı və erməni təcavüzünü pislədiyi bir şəraitdə qondarma cinayətkar xuntanın “müstəqillik günü”nü qeyd etməsi onun çıxılmaz vəziyyətdə olduğunun təcəssümüdür. Qondarma rejimin əsarəti altında çapalayan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni icmasından alət kimi istifadə etməklə cinayətkar xuntanın və onun havadarı olan Ermənistanın hansı “müstəqillik” ideyalarını tərənnüm etməsi gülünc vəziyyət doğurur. Ermənistan öz işğalçı siyasəti ilə özünü iqtisadi, siyasi və s. cəhətlərdən regionda inkişafdan geri salmaqla və özünü uçuruma aparmaqla kifayətlənməyərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasını aldadaraq öz məkrli siyasəti üçün istifadə etməkdə davam edir.

Erməni icması bu yalançı və saxta “matriks”dən azad olmalı və azərbaycanlı icma ilə bir yerdə Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ədalətli və daimi sülhün bərqərar olması üçün addım atmalıdır. Bu, yeganə çıxış yoludur.

Dünya ictimaiyyəti münaqişə üzrə danışıqlarda indiyə qədər daim konstruktiv mövqe göstərən regionun lider ölkəsi Azərbaycanın ədalətli mövqeyini də, təcavüzkar Ermənistanın atdığı addımları da yaxşı görür. Ermənistan və xüsusilə cinayətkar xunta rejimi vəziyyəti dəyərləndirərək nəticə çıxarmalı və atılan hesablanmamış addımlara görə məsuliyyət daşıdıqlarını dərk etməlidir. Təcavüzkar Ermənistan tərəfindən işğalın nəticələrini “möhkəmləndirmək” üçün atılan istənilən addım Ab initio beynəlxalq hüquqa ziddir və heç bir fayda verməyəcək. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri bərpa olunduqdan və ölkəmizin işğal olunmuş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlı geri qayıtdıqdan sonra iki icmanın sülh şəraitində birgəyaşayışını müzakirə etmək olar.

Qeyd olunanlar 20 ildən çoxdur ki, davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hadisələrin inkişaf istiqamətinə də təsirsiz ötüşməyərək yeni bir situasiyanın yaranmasına səbəb olmaqdadır. Məsələyə diplomatiya, beynəlxalq hüquq kontekstindən yanaşıldıqda aydın olur ki, Ermənistan sözün əsl mənasında küncə sıxışdırılmış vəziyyətdədir və Azərbaycanın apardığı siyasət nəticəsində işğalçı dövlətin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə yer qalmayıb. İndi dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq onu zəbt etdiyi əraziləri azad etməyə çağırır. BMT, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri müvafiq qətnamələrdə, o cümlədən münaqişənin dinc yolla çözülməsi üçün vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun irəli sürdüyü həll variantlarında da Ermənistanın işğalçı dövlət kimi təqdim olunması düşmən ölkənin diplomatiya müstəvisində artıq nokaut vəziyyətinə düşdüyünü təsdiq edən faktorlardır.

Beləliklə, münaqişənin yeganə həll yolu Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtmasıdır. Ölkəmizin beynəlxalq hüquqa və tarixi ədalətə söykənən bu mövqeyi bütün dünya ictimaiyyəti tərəfindən qəbul olunur və dəstəklənir. Ermənilərin isə buna müqavimət imkanları getdikcə daha zəif hal alır.

Digər tərəfdən, Ermənistan görür ki, Azərbaycanın artan hərbi-siyasi gücü, qətiyyəti regionda mühüm keyfiyyət dəyişikliyi yaradıb, hərbi-siyasi və iqtisadi güc balansı tamamilə ölkəmizin xeyrinə dəyişib. Bu isə Dağlıq Qarabağ probleminin həllində şərtləri məhz Azərbaycanın diktə etməsinə şərait yaradır. Aclıq və səfalət içərisində yaşayan Ermənistan cəmiyyəti görür ki, bu durumda Azərbaycanın torpaqlarını uzun müddət işğal altında saxlaya bilməz.

Bu fonda onu da nəzərə almaq lazımdır ki, Ermənistanda və Azərbaycanın işğal altında olan ərazilərində formalaşdırılmış separatçı bölgədə baş verən hadisələr, Xankəndidəki oyuncaq rejimə qarşı keçirilən kütləvi aksiyalarda söylənilən şüarlar, etiraz bəyanatları Azərbaycan Prezidenti İlham Əliyevin illər ərzində BMT-nin və digər beynəlxalq təşkilatların kürsülərindən səsləndirdiyi fikirlərin etirafıdır.

Ermənilər görürlər ki, işğal faktoru üzərindən yürüdülən militarist siyasət, qonşu dövlətlərə qarşı ərazi iddialarının təşviqi və yarıtmaz idarəçilik Yerevanı regionda həyata keçirilən bütün layihələrdən kənarda qoyub. Bu isə ölkənin çöküşünü sürətləndirir, əhalinin olduqca ağır, məşəqqətli sosial şərtlər altında yaşamasına, ölkədən qaçmasına səbəb olur.

Bu durumda Azərbaycanın öz təbii resurslarına, insan potensialına söykənərək yürütdüyü sabit və uzaqgörən siyasət, dövlət başçısının da qeyd etdiyi kimi, Ermənistanı iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Bu dalandan yeganə çıxış yolu isə işğala son qoyulması, dinc birgəyaşayışdır.

Xankəndidə etiraz aksiyası keçirən ermənilər də qanunsuz silahlı birləşmələrin əlində girov olduqlarını, heç bir hüquqlarının tanınmadığını, zorla hərbi əməliyyatlara cəlb edildiklərini, özlərini həbs düşərgəsində hiss etdiklərini bildirirlər.

Prezident İlham Əliyev ən yüksək kürsülərdən dəfələrlə bəyan edib ki, işğal altındakı torpaqlarımızda yaşayan etnik ermənilər Yerevandakı cinayətkar rejimin və onun Xankəndidəki oyuncaq əlaltılarının girovlarıdır. Artıq bunu ermənilər özləri də etiraf edirlər. Ermənistan nə qədər ki Azərbaycan torpaqlarını işğal altında saxlayır, onun heç bir perspektivi yoxdur.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***AZƏRTAC***

# Nur şəhəri nurlu dövrünü yaşayır

Energetiklər şəhəri kimi tanınan Mingəçevir son illər sözün həqiqi mənasında yeni bir dirçəliş dövrü yaşayır. Dövlət başçısının şəhərə xüsusi qayğısı sayəsində Mingəçevirin iqtisadiyyatı inkişaf edir, həyata keçirilən yeni sosial layihələr sakinlərin güzəranını yaxşılaşdırır, şəhər abadlaşır.




Qəşəm İsmayılov Mingəçevirin ilk qurucularındandır. Yaşı 80-i adlamış ağsaqqal bu gün də şəhərin ictimai-siyasi həyatında fəal iştirak edir. Bütün həyatını Mingəçevirin tikilib-qurulmasına, abad və gözəl şəhərə çevrilməsinə sərf edən Qəşəm kişi deyir:

- Bu gün abadlığı ilə seçilən Mingəçevir gözlərim qarşısında boy atıb, ucalıb. Onun az qala hər küçəsində, hər binasında izlərim, unudulmaz xatirələrim var. Doğma şəhərimin yaraşıqlı, cənnət misallı bugününü görəndə ürəyim fərəhlə döyünür. Qürur hissi keçirirəm ki, onun tikilib-qurulmasında az-çox mənim də əməyim var. İndi haqlı olaraq Mingəçeviri ən gözəl şəhərlərlə müqayisə edirlər. Əlbəttə, bu, mənim üçün çox qürurvericidir.

Bir qocaman şəhər sakini kimi, Prezident İlham Əliyevə çox minnətdaram ki, hər zaman Mingəçevirin inkişafını diqqət mərkəzində saxlayır, qayğısını əsirgəmir. Məhz bu münasibət bizim sevimli şəhərimizi gözəlliklər diyarına çevirib. Abad küçə və prospektlər, yaraşıqlı park və xiyabanlar, milli memarlıq üslubunda inşa edilmiş müasir binalar, hər addımda üzə gülən al-əlvan çiçəklər, yaşıl ağaclar, əzəmətli çinarlar Mingəçeviri füsunkar edib. Biz xoşbəxtik ki, belə abad və gözəl şəhərdə yaşayırıq. Biz çox məmnunuq ki, dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunmuşuq.

Mingəçevirdə abadlıq, quruculuq işləri bu gün də davam edir. Şəhərin H.Aslanov və 20 Yanvar küçələrinin kəsişdiyi ərazidə nümunəvi məhəllə salınır. Yenidən qurulan Dostluq parkında dövlət rəmzləri müzeyi inşa olunur. Burada 200 yerlik örtülü səhnənin, musiqili fəvvarənin, uşaqlar üçün əyləncə meydançalarının tikilib istifadəyə verilməsi nəzərdə tutulur. Şəhərə Xaldan tərəfdən girişdə 2 hektarlıq ərazidə yeni park da salınır.

Ana Kürün ikiyə böldüyü, gözəl görkəmi, füsunkar təbiəti ilə hər kəsi valeh edən Mingəçevir həm də ölkənin turizm mərkəzlərindən birinə çevrilir. Bura səfər edən əcnəbi qonaqlar öz vətənlərinə zəngin təəssüratla, xoş xatirələrlə dönürlər.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Ötən ilin avqust ayı ilə müqayisədə enerjinin istehsalı 10,5 faiz, ixracı isə 2 dəfədən çox artıb

Ötən ilin avqust ayı ilə müqayisədə 2019-cu ilin avqust ayında elektrik enerjisinin istehsalı və ixracı əhəmiyyətli dərəcədə artıb. Belə ki, ötən ay 2,14 milyard kVts elektrik enerjisi istehsal edilib ki, bu da 2018-ci ilin avqust ayı ilə müqayisədə 200 milyon kVts və ya 10,5 faiz çoxdur.



Ötən ilin avqust ayı ilə müqayisədə qonşu dövlətlərə elektrik enerjisinin ixracı da dəfələrlə artıb. “Reabilitasiya Proqramı” çərçivəsində elektrik stansiyalarının texniki imkanlarının müəyyən qədər artması qonşu dövlətlərə, xüsusilə Gürcüstana müqavilə əsasında daha çox elektrik enerjisi ixrac edilməsinə şərait yaradıb. Belə ki, 2018-ci ilin avqust ayında qonşu dövlətlərə 72,2 milyon kVts elektrik enerjisi ixrac edildiyi halda, bu ilin avqust ayında 166,3 milyon kVts elektrik enerjisi ixrac edilib. Bu da 94,1 milyon kVts və ya 2 dəfədən çox artım deməkdir. Qeyd edək ki, ixrac edilən 166,3 milyon kVts elektrik enerjisinin 158,8 milyon kVts Gürcüstan Respublikasına ötürülüb.

***“Azərbaycan”***

# Paytaxt ekologiyasına töhfə verəcək layihə uğurla icra edilir

İyul ayından etibarən Bakı şəhərinin Nərimanov rayonunda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi ilə bağlı Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Böyük Britaniyanın Mott MacDonald şirkəti ilə birgə hazırladığı yeni pilot layihənin icrasına başlanılıb.



Hazırlıq və sakinlərlə maarifləndirmə işlərinin yüksək səviyyədə aparılması nəticəsində keçən müddət ərzində xeyli irəliləyişlər əldə olunub. Maarifləndirici tədbirlər, evlərə paylanan broşürlər, bloklara yapışdırılan elanlar, həyətlərdə, məhəllələrdə keçirilən görüşlər öz bəhrəsini vermişdir. Meydançalara lazımi miqdarda konteynerlər yerləşdirilib, könüllülər gündəlik izahetmə işləri aparıblar. Sanitar-gigiyena tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən yaradılan Monitorinq Mərkəzində Bakıya növbəti dəfə ezam olunmuş Mott MacDonald şirkətinın səlahiyyətli nümayəndəsi - Tullantı Menecmenti məsləhətçisi Artur Guasti ictimaiyyətə və mətbuat nümayəndələrinə konsepsiya çərçivəsində indiyədək görülən işlər barədə ətraflı məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır. O bildirmişdir ki, tullantıların kompozisiyasının araşdırılmasının təkrarlanması əldə edilən təkrar emal tullantılarının nisbətinin dəqiq öyrənilməsidir. Kompozisiya araşdırılmasının təkrarlanması hər dəfə nəticələrin dəqiqləşdirilməsi üçündür və hər 2-3 aydan bir təkrarlanması nəzərdə tutulub. Burada əsas məqsəd hansı materialların uğurlu, hansının isə uğursuz toplanması, nələri az, nələri isə çox əldə edə bildiyimizi öyrənməkdir. Hər gün konteynerlər yoxlanılır, onların yerləşmə strukturu müzakirə olunaraq optimal variant tapılır.

Artıq görülən işlər öz bəhrəsini verməkdədir. Hər gün yığılan tullantıların tərkibi və çəkiləri araşdırılır, məlumat bazasına əlavə edilir. Ilkin günlərdə təkrar emal üçün yığılan tullantıların miqdarı 6 tona yaxın idisə, işlərin başlanmasından 2 ay sonra gündəlik təkrar emal tullantılarının miqdarı 22 tona çatıb və bu göstərici artmaqda davam edir.

Layihənin icrasının ilk 2 ayının nəticələri çox uğurludur. Kiçik, çox da vacib olmayan problemlər var, onlar qaçılmazdır. Onlar operativ şəkildə aradan qaldırılır. Gündəlik olaraq “Təmiz şəhər” ASC-də oluruq və nəqliyyatın gətirdiyi tullantıları orada da araşdırırıq.

Mott MacDonald şirkətinın Tullantı Menecmenti məsləhətçisi Artur Guasti bildirmişdir ki, bir sıra ölkələrin paytaxtlarından fərqli olaraq Bakı şəhərində bu layihənin tətbiqi çox uğurla keçir və yaxın gələcəkdə Nərimanov rayonu ilə yanaşı, digər rayonlarda da tətbiq ediləcəkdir. Hazırda isə həmin rayonlarda tullantıların konpozisiyalarının müəyyənləşdirilməsi işləri aparılır.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Hadisə yerindən qaçan sürücü həbs edilib

Sumqayıt şəhərinin polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək hadisə yerindən qaçmış sürücü tutularaq istintaqa cəlb edilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 31-də, saat 22 radələrində Sumqayıt şəhəri, Sahil küçəsində “Mercedes” markalı 90-LE-014 dövlət qeydiyyat nişanlı avtomobili idarə edən naməlum şəxs tərəfindən piyada Mənsumə Əliyevanın vurulması nəticəsində sonuncunun aldığı xəsarətlərdən Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında ölməsi və sürücünün hadisə yerindən qaçması faktına görə Sumqayıt Şəhər Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hadisə yerinə baxış keçirilib, zəruri ekspertizalar təyin olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

İstintaqla hadisənin Rüstəm Manafov tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının kobud surətdə pozularaq idarə etdiyi avtomobillə törədilməsinə, eləcə də onun hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

R.Manafov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

*Təkrar*

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti aşağıdakı işlərin görülməsinin satın alınması üçün

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: "İçərişəhər" Muzey Mərkəzinin Bakı şəhəri, Xəzər rayonu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu Qəsri"ndə təmir-tikinti işlərinin satın alınması.**

Tələb olunan ehtiyat hissələri müqavilə imzalandığı gündən 31 dekabr 2019-cu il tarixinədək təhvil verilməlidir.

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 150 (bir yüz əlli) manat məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 (əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27) ünvanından ala bilərlər. **mahir.a@icherisheher.gov.az**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 sentyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23 sentyabr 2019-cu il saat 17:00-a qədər "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 sentyabr 2019-cu il saat 10:00-da Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu

### *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir:

**LOT 1** - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün dəftərxana ləvazimatlarının satın alınması

**LOT 2** - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün çap materiallarının satın alınması

**LOT 3** - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025 , Bakı şəh., Xocalı pr., 30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı
Əlaqə nömrəsi: 012-490-13-29

**İştirak haqqı hər LOT üzrə 300 (üç yüz) manat**

**Bank rekvizitləri:**
**Az 1025 , Bakı şəh., Xocalı pr., 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M\h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**

**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir *(www.tender.gov.az)*. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 sentyabr 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **25 sentyabr 2019-cu il saat 16:00-a** qədər Az 1025, Bakı şəh., Xocalı pr., 30 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 sentyabr 2019-cu il saat 14:00-da** Bakı şəh., Xocalı pr., 30 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 22.07.2019-cu il tarixdə elan edilmiş dövlət ümumtəhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsili üzrə təlimlərin satın alınması üzrə 30.08.2019-cu il tarixdə 6 LOT üzrə açıq tender proseduru keçirilmişdir. Tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" qanununun 11.1-ci maddəsinə uyğun olaraq tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Quba şəhərində Soyqırımı Memorial Kompleksi soyutma və isitmə avadanlıqları üzrə xidmətlərin (digər alış və xidmətlər -225413) görülməsi ilə əlaqədar

### *kotirovka sorğusu elan edir*

Maraqlanan təşkilatlar 0233353707 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər **09.09.2019-cu il saat 17:00-dək** qəbul olunur .
Əlaqələndirici şəxs : Ayaz Əlisafa oğlu Ağayev.

**Ünvan: Quba şəhəri, N.Nərimanov 1A/soyqirim.az**
**email:office@soyqirim.az**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## İran ABŞ-la birbaşa danışıqları istisna edir

İran Prezidenti Həsən Ruhani ölkə parlamentinin qarşısında çıxış edərkən bildirmişdir ki, İran ABŞ-la ikitərəfli danışıqlar barədə qərar qəbul etməmişdir, Tehranın nüvə proqramına dair Vaşinqtonla dialoq yalnız 5+1 (BMT Təhlükəsizlik Şurasının üzvü olan beş ölkə + Almaniya) formatında mümkündür. Bu barədə yerli KİV xəbər verir.

Ruhani əlavə etmişdir ki, İran 5+1 formatında görüşlərə yalnız İrana qarşı sanksiyaları ləğv etdikdən sonra qatıla bilər. Prezident qeyd etmişdir ki, ABŞ-la danışıqlar məsələsinə münasibət bildirərkən verdiyi bəyanatlar dəfələrlə səhv izah olunmuşdur: "ABŞ-la danışıqlar haqqında heç bir qərar qəbul edilməmişdir. Danışıqlar haqqında Amerika tərəfi çoxlu təkliflər irəli sürmüş, amma bizim cavabımız həmişə mənfi olmuşdur".

## Brexit təxirə salınmayacaq



Böyük Britaniyanın Baş Naziri Boris Conson Birləşmiş Krallığın Avropa İttifaqından (Aİ) çıxmasının (Brexit) növbəti dəfə təxirə salınmasının yolverilməz olduğunu bildirmişdir. O vurğulamışdır ki, heç bir halda Brexiti təxirə salmaq xahişi ilə Aİ-yə müraciət etməyəcək və "biz oktyabrın 31-də Aİ-ni tərk edəcəyik".

Conson qeyd etmişdir ki, növbədənkənar parlament seçkilərinin keçirilməsinin əleyhinədir. O əmin olduğunu bildirmişdir ki, Aİ liderlərinin gələn ay keçiriləcək sammitində tərəflər Brexit haqqında sazişə nail ola biləcəklər. Bununla yanaşı, Baş Nazir son həftələr Aİ ilə danışıqlarda irəliləyişi nəzərə çarpdırmışdır.

Bir müddət əvvəl Böyük Britaniya parlamentinin bir qrup deputatı ölkənin Brüsselə saziş imzalamadan Aİ-dən çıxmasını rədd edərək Brexiti oktyabrın 31-dən gələn il yanvarın 31-nə keçirməyi təklif etmişdi.

## Kabildə diplomatik məhəllədə partlayış



Əfqanıstanın paytaxtı Kabilin xarici diplomatlar yaşayan "Green Village" rayonunda baş vermiş güclü partlayış nəticəsində azı 15 nəfər həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Partlayış yaxınlıqdakı yanacaqdoldurma stansiyasında yanğına səbəb olmuşdur. Zərərçəkənlərin xeyli hissəsi uşaqlardır. Hüquq mühafizə orqanlarının fikrincə, partlayıcı maddə avtomobildə imiş.

Hadisəyə görə məsuliyyəti "Taliban" ekstremist təşkilatı üzərinə götürmüşdür. Yeri gəlmişkən, qruplaşmanın nümayəndələri son günlər ABŞ hakimiyyət orqanları ilə danışıqlar aparırdılar. ABŞ-ın xüsusi nümayəndəsi Zalmay Xəlilzad srağagün bildirmişdi ki, "Taliban"la prinsipial saziş əldə edilmişdir. Onun dediyinə görə, Amerika qoşunları sənəd imzalandıqdan sonra 135 gün ərzində beş bazanı tərk edəcək. Xəlilzad əlavə etmişdir ki, ABŞ Prezidenti Donald Tramp sazişi imzaladıqdan sonra sənəd qüvvəyə minəcək.

## Kaliforniyada turist gəmisi yandı



ABŞ-ın Kaliforniya şəhərinin sahillərinin yaxınlığında, Santa-Kruz adasından təxminən 20 metr aralıda turist gəmisinin yanaraq batması nəticəsində 25 nəfər həlak olmuşdur. Gəmidə 39 nəfər var idi. Onların 5-ni xilas etmək mümkün olmuşdur. 9 nəfər itkin sayılır.

CNN telekanalının xəbərinə görə, gəmi avqustun 31-də dənizə çıxmışdı. Santa-Kruzun daxil olduğu adalar qrupu sualtı üzgüçülük həvəskarlarının sevdiyi yerlərdəndir.

## Baham adalarında 5 nəfər "Dorian"ın qurbanı oldu

ABŞ-ın Baham adalarında "Dorian" qasırğasının törətdiyi dağıntılar nəticəsində azı 5 nəfər həlak olmuşdur. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Baham Adaları Birliyinin Baş Naziri Hübert Minnis bildirmişdir ki, "biz tarixi faciə vəziyyətindəyik". O vurğulamışdır ki, yerli hakimiyyət orqanlarının başlıca vəzifəsi zərərçəkənləri xilas etmək və dağılan yerləri bərpa etməkdir.

"Dorian" Baham adalarında güclü daşqınlara səbəb olmuşdur. Təxminən 13 min bina qismən, yaxud tamamilə dağılmışdır. Bu arada ABŞ sakinlərinin narahatlıqla gözlədiyi qasırğa hazırda faktiki olaraq dayanmışdır. Meteoroloqların məlumatına görə, atmosferin yuxarı qatlarında külək yoxdur. "Dorian"ın Baham adalarını vursa da, bu, qasırğanın Floridaya endirəcəyi zərbəni zəifləd\u0259 bilər.

## Çin "New York Times" qəzetinə xəbərdarlıq edib




Çin Xarici İşlər Nazirliyi Çin əleyhinə fəaliyyət göstərənlərin müsbət imicini formalaşdırmaqla Honkonqda baş verən hadisələr haqqında yanlış məlumatlar yayan "New York Times" qəzetinə xəbərdarlıq edib.

AZƏRTAC xəbər verir ki, Çin Xarici İşlər Nazirliyinin Honkonq xüsusi inzibati bölgəsindəki idarəsinin yaydığı bəyanatda qondarma "Honkonqun müstəqilliyi" radikal fikrini yayan, Çin mərkəzi hakimiyyətinə, Honkonq hökumətinə və polisinə ləkə atan Coşua Vonq və Aleks Çou adlı radikal şəxslər haqqında saxta müsbət xarakterli məqalələrin narahatlıq doğurduğu bildirilib. Bəyanatda ABŞ qəzetinin Honkonqda baş verən hadisələri səhv işıqlandırmasının mənfi nəticələr verə biləcəyi qeyd olunub, Çinin əleyhinə olan qüvvələr və "Honkonqun müstəqilliyi"nə çağıran radikal qruplar üçün platforma olan "New York Times"ın bu insanları çoxluq kimi təqdim etməkdən belə çəkinmədiyi vurğulanıb.

Bildirilib ki, qəzet Honkonqda dövlət və ictimai əmlakı zədələmək, polisə və günahsız insanlara hücum etmək kimi qanunsuz əməlləri yumşaq təqdim edir, gərgin fəaliyyət anlarında maksimum təmkin nümayiş etdirən asayiş keşikçilərini isə əsassız günahlandırır.

Çin Xarici İşlər Nazirliyinin Honkonq xüsusi inzibati bölgəsindəki idarəsi "New York Times" qəzetini Honkonq hadisələri barədə səhv mövqeyini təcili düzəltməyi və baş verənləri məsuliyyətli, obyektiv, bitərəf qaydada işıqlandırmağı tələb edib.

## "Şeremetyevo" aeroportunda iki təyyarə toqquşub



Moskvanın "Şeremetyevo" aeroportunun uçuş-eniş zolağında iki təyyarə toqquşub. TASS agentliyinə istinadla xəbər verir ki, insidentdən sonra sərnişinlərin təxliyəsi həyata keçirilib.

Agentliyin məlumatında bildirilir ki, "Royal Flight" və "Aeroflot" aviaşirkətlərinə məxsus olan sərnişin təyyarələrinin qanadları toqquşub. Birinci təyyarə boş olub, lakin digəri Pekinə olan reysi yerinə yetirmək üçün zolaqda hərəkət edirmiş. Hazırda aeroportun texniki personalı təyyarələri buksirlə kənara çəkib və onları müayinə edirlər. Pekinə uçan sərnişinləri isə başqa təyyarəyə mindirirlər.

İnsident nəticəsində xəsarət alanlar barədə məlumat yoxdur.

## Yaxın iki gün ərzində hava şəraiti meteohəssas insanlar üçün əlverişli olacaq

Ölkə ərazisində sentyabrın 4-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 16-20°, gündüz 25-28° isti, Bakıda gecə 17-19°, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 26-31° isti, dağlarda gecə 7-12°, gündüz 14-19° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 4-5-də Abşeron yarımadasında komfort temperatur rejimi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 28-33° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 14-19° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 24-29° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir, duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 21-26° isti, dağlarda gecə 4-9°, gündüz 13-18° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Səhər saatlarında duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 26-31° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı ehtimal edilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-19°, gündüz 24-28° isti, dağlarda gecə 9-14°, gündüz 17-22° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi

**NAZİM İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Konfederasiyanın İnşaat və Ticarət materialları istehsalı müəssisələri ilə iş komissiyasının üzvü İsmayıl Pənahova qardaşı

**FİRDOVSİ PƏNAHOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin rəhbərliyi Komissiya Katibliyinin sabiq müdiri

**ÇİNGİZ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova əzizi

**FƏRİD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova əzizi

**FƏRİD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ailəsi ilə birlikdə akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9013
Sifariş 2896
Qiyməti 40 qəpik